AZƏRBAYCAN RESPUBLİKASI
DAXİLİ İŞLƏR NAZİRLİYİ
POLİS AKADEMİYASI

FƏRQANƏ ƏLİYEVA

# Ritorika

*fənni üzrə*

*tədris-metodik vəsait*

BAKI-2025

**AZƏRBAYCAN RESPUBLİKASI**
**DAXİLİ İŞLƏR NAZİRLİYİ**
**POLİS AKADEMİYASI**

**FƏRQANƏ ƏLİYEVA**

**İxtisasın şifri və adı:**
**6002007 – "Hüquqşünaslıq" bakalavr**

# *Ritorika*

***fənni üzrə***
***tədris-metodik vəsait***

*Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının Elmi Şurasının 12.08.2025-ci il tarixli 4 nömrəli protokoluna əsasən təsdiq edilmişdir.*

**BAKI-2025**

**Tərtib etdi:** DİN-in Polis Akademiyasının Dil hazırlığı kafedrasının dosenti, Qabaqcıl təhsil işçisi, filologiya üzrə fəlsəfə doktoru
**Əliyeva Fərqanə Aydın qızı**

**Redaktor:** BSU-nun Ana dilinin tədrisi metodikası kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru
**Əliyeva Rəna Ağacan qızı**

**Rəyçilər:** Heydər Əliyev adına Hərbi İnstitutun NATO/Sülh naminə tərəfdaşlıq və Humanitar fənlər kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru
**Çobanova Hüsniyyə Mədət qızı**

DİN-in Polis Akademiyasının Dil hazırlığı kafedrasının müəllimi, polis baş leytenantı, filologiya üzrə fəlsəfə doktoru
**Səfərli Aynur Mətləb qızı**

**Əliyeva Fərqanə Aydın qızı** – *Ritorika fənni üzrə metodik vəsait, "Bakı MMC", 2025, 128 səh.*

Bu vəsait Ritorika fənninin tədrisi zamanı seminar və təcrübi məşğələlərin tədrisi üçün kursantlara yol göstərir, nitq bacarıqlarının aşılanması, seminara hazırlıq üçün tövsiyyələr verir. Eyni zamanda müəllimlərə təcrübi məşğələlərdə hansı metod, priyomlardan istifadə olunmasını və tətbiqi yollarını öyrədir.

DOI https://doi.org/10.36719/0827/2025

## Fənnin öyrədilməsinə aid metodik tövsiyə

*"İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur".*

*Heydər Əliyev*

Dahi Öndərimiz Heydər Əliyevin Azərbaycan dilinə sonsuz sevgisi və bu dilin inkişafı naminə həyata keçirdiyi tədbirlər, qəbul edilən qanun, fərman, sərəncam və qərarlar dilimizin müasir dövrdə geniş vüsət alaraq bütün sahələrdə işlənməsinə səbəb oldu. Fenomen şəxsiyyət Heydər Əliyevin bəlağətli nitqi hər bir insana örnəkdir.

2012-ci ilin 23 may tarixində ölkə Prezidenti İlham Əliyev qloballaşma dövründə Azərbaycan dilinin müasir tələblərə uyğun şəkildə istifadəsini və ölkədə dilçilik elminin inkişafını nəzərdə tutan bir sərəncam imzalamış, 2013-cü il aprelin 9-da isə bu istiqamətdə Dövlət Proqramına rəsmilik qazandırmışdır. Həm sərəncamda, həm də proqramda dövlət dilinin hərtərəfli inkişaf etdirilməsi, onun tətbiqinin genişləndirilməsi və tədrisinin təşviq olunması əsas istiqamətlər kimi vurğulanmışdır.

Xalqımızın müstəqillik, həmçinin suverenlik qazandığı hazırkı dövrdə hərtərəfli inkişaf edən kadrların yetişdirilməsi ehtiyacı dil mədəniyyətinin önəmini artırır. Bütün mütəxəssis və ziyalılar gələcəkdə insanlarla, vətəndaşlarla ünsiyyət qurarkən nitqindən təsirli vasitə kimi istifadə etməlidir. Əslində bu sahədə tələblər hər yerdə oxşar-

dır: təhsilalanlar istər yazılı, istərsə də şifahi şəkildə öz düşüncə və fikirlərini ifadə etməyi, məntiqi mühakimə aparmağı, həmkarları qarşısında mövqeyini izah etməyi, verilən tapşırıqları yerinə yetirərkən gördükləri işləri hesabat şəklində təqdim etməyi bacarmalıdırlar. Yalnız bu yolla onlar təcrübə toplayıb peşəkar kimi formalaşa, cəmiyyətə faydalı ola bilərlər.

Azərbaycan dili ölkəmizin rəsmi dili olmaqla yanaşı, geniş şəkildə istifadə edilən əsas ictimai ünsiyyət vasitəsidir. Kargüzarlıq prosesləri, rəsmi sənədlərin tərtibi, mətbuat materialları, televiziya və radio yayımları məhz bu dildə həyata keçirilir. Müxtəlif peşə sahələrində çalışan, fərqli dil zövqünə malik şəxslər öz düşüncə və fikirlərini, təklif və iradlarını, eləcə də xalqımızın ədəbiyyatı, mədəniyyəti o cümlədən tarixi və ölkənin daxili-xarici siyasətilə əlaqədar müzakirələrini ana dilimiz – Azərbaycan dili vasitəsilə ifadə edirlər.

Ritorika fənni təhsilalanlara aydın və düzgün danışmaq, tələffüz normalarına əməl etmək, diksiyanı və səs imkanlarını təkmilləşdirmək, nitqi zənginləşdirmək və onu məntiqi əsaslara uyğun qurmaq kimi bacarıqlar qazandırır. Bu cür nitqə hər bir ziyalı, hər bir savadlı insanın sahib olması üçün “Ritorika” fənni əhəmiyyətlidir. Hər kəs düşüncələrini aydın, qısa və gözəl formada çatdırmağı öyrənməlidir. Ritorikanın ali məktəblərdə əsas vəzifəsi kursantın cəmiyyətdə öz mövqeyini düzgün şəkildə ifadə etməsi, işinin incəliklərinə yaxşı bələd olduğunu nümayiş etdirməsi üsullarına yiyələnmiş şəxsiyyətin yetişdirilməsidir.

Ana dili yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda xalqın dünyagörüşünün, milli-mənəvi varlığının ifadə vasitəsidir. XXI əsrdə işgüzar ünsiyyət, nitqin etik qaydaları

və ona uyğun kommunikasiyanın qurulması prioritet məsələlərdəndir.

Fənnin tədrisi zamanı əldə olunacaq bilik, bacarıq və vərdişlər tələbələrin ali təhsilli peşəkar mütəxəssis kimi gələcək fəaliyyətlərində, insanlarla ünsiyyət qurarkən onlara düzgün dəyər vermək istiqamətində aparılan işlərdə gərəkli olacaqdır.

*Müəllifdən*

## Mövzu-təqvim planı

| Sıra №-si | Mövzunun adı | Mövzuya ayrılmış vaxt | Dərsin növü | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | Mühazirə | Seminar | Dərs | Təcrübə | Yoxlama nəzarət dərsi |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** |
| 1. | Ritorika fənninin predmeti, məqsəd və vəzifələri, tarixi, başqa elmlərlə əlaqəsi. Natiqlik sənətinin sahələri və əsas xüsusiyyətləri | 8 | 2 | 2 | | 4 | |
| 2. | Üslub və üslubiyyat. Ədəbi dilin normaları. Nitqin növləri, formaları, etiketləri. | 8 | 2 | 2 | | 4 | |
| 3. | **Kollokvium (Aralıq imtahan mövzu 1-2)** | 2 | | | | | 2 |
| 4 | Ünsiyyət vasitələri və onların nitqdə rolu, əhəmiyyəti. Nitqin məqsədinə görə prinsipləri və növləri. | 8 | 2 | 2 | | 4 | |
| 5 | Nitq fəaliyyəti. Nitqin ob- | 8 | 2 | 2 | | 4 | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | razlılığı və emosional ifadəliliyi. Çıxışın kompozisiyası. | | | | | | |
| 6 | **Kollokvium (Mövzu 1-4)** | 2 | | | | | 2 |
| 7 | Kütlə qarşısında nitq. Natiqin xarici görünüşü. Nitq texnikası. Diskussiya mədəniyyəti. | 8 | 2 | 2 | | 4 | |
| 8. | **Kollokvium (Aralıq imtahan mövzu 3-5)** | 1 | | | | | 1 |
| | **CƏMİ:** | 45 | 10 | 10 | - | 20 | 5 |

# FƏNNİN KOMPETENSİYALARI

***Ritorika fənninin öyrənilməsi nəticəsində kursant bilməlidir:***

- ✓ səmərəli nitq kommunikasiyasının şərtlərini;
- ✓ müasir Azərbaycan ədəbi dilinin normalarından nitqdə istifadəsi;
- ✓ dilin üslubi qaydalarının yazılı və şifahi nitqdə işlədilməsi yollarını;
- ✓ məhkəmə natiqliyi ənənələrini, quruluşunu;
- ✓ hüquqşünasın nitqinə verilən tələbləri;
- ✓ nitqin məqsədə görə növlərini;
- ✓ çıxışın kompozisiyası və onun qarşısında duran vəzifələri;
- ✓ natiqin görünüşü, davranışı, bədən dilini;
- ✓ yaranış mərhələsində ritorik fəaliyyəti;
- ✓ çıxış zamanı şüuraltı qorxunu dəf etməyin yollarını;
- ✓ natiqlik sənətinin əsaslarını;
- ✓ kütlə qarşısında nitqin xassələrini, vasitələrini;
- ✓ çıxışa hazırlığın metodologiyasını,
- ✓ diskussiya mədəniyyətinin əsaslarını;
- ✓ müxtəlif növ mətnlərin (təsvir, rəvayət, mühakimə) qurulması xüsusiyyətlərini.

***Ritorika fənninin öyrənilməsi nəticəsində kursant bacarmalıdır:***

- ✓ müasir ədəbi dilin leksikasını lazımi həcmdə düzgün istifadə etməyi;
- ✓ şifahi və yazılı ünsiyyətdə Azərbaycan dilindən optimal şəkildə istifadə etməyi;
- ✓ mətn tərtib etməyi, publik çıxışlar hazırlamağı;

- ✓ işgüzar nitqdə hüquqi leksikanı düzgün işlətməyi;
- ✓ konkret xidməti situasiyalarda davranış normalarını etik və əxlaqi mövqedən seçməyi;
- ✓ peşə fəaliyyətində nəzakət və davranış mədəniyyəti qaydalarına riayət etməyi;
- ✓ anlayışları dəqiq müəyyənləşdirilmiş məzmunda tətbiq etməyi; mühakimələrin məntiqi mənasını müəyyən etməyi; sualların məntiqi xüsusiyyətlərini qiymətləndirməyi və cavabların məntiqi cəhətdən qüsursuz qurulması priyomlarından istifadə etməyi; dialoq və diskussiya aparmağı;
- ✓ çıxış hazırlayarkən onun quruluşuna və kompozisiyasına əməl etməyi;
- ✓ çıxışı zənginləşdirmək üçün sitatlar və nümunələrin işlədilməsini;
- ✓ çıxış zamanı jest və mimikadan düzgün istifadə etməyi;
- ✓ həyəcansız, sərbəst şəkildə çıxış etməyi.

***Ritorika fənninin öyrənilməsi nəticəsində kursant yiyələnməlidir:***

- ✓ müasir Azərbaycan dilinin əsas tələffüz və vurğu normalarına;
- ✓ mədəni nitqin qarşısında duran tələblərə;
- ✓ diskussiya etmək ustalığının əsaslarına;
- ✓ problem düşüncə, nitqin məntiqi qurulması və dəlillərin seçilməsi priyomlarından istifadə, məhkəmə-istintaq, əməliyyat-xidmət və digər fəaliyyət növlərinin materiallarında məntiqi səhvləri tapmaq vərdişlərinə;
- ✓ öz hərəkətlərini və ətrafındakıların hərəkətlərini etika və əxlaq normaları nöqteyi-nəzərindən qiymətləndirmə vərdişlərinə;

- ✓ kollektivdə və vətəndaşlarla xidməti etiket normalarına uyğun ünsiyyət vərdişlərinə;
- ✓ şifahi və yazılı nitq nümayiş etdirərkən nitq texnikalarından düzgün istifadə etməyə;
- ✓ çıxış zamanı jest və mimikadan səmərəli istifadə etməyə;
- ✓ psixoloji gərginliyini, həyəcanını çıxış zamanı dəf etməyə;
- ✓ nitq bacarıqlarına.

## HEYDƏR ƏLİYEV AZƏRBAYCAN DİLİ HAQQINDA

- «Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir».

- «Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir».

- «Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini bilməlidir».

- «Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir».

- «Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik».

- «Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə –Azərbaycan dili ilə fəxr edirik».

- «Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir. Xüsusən bizim yazıçılarımız, ədəbiyyatşünaslarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər».

- **«Dil böyük bir sərvətdir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir».**

- **«Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur».**

- **«Gənclərimiz tariximizi, dilimizi, mədəniyyətimizi və dini dəyərlərimizi yaxşı bilməlidirlər».**

- **«Azərbaycan dili bizi keçmişdə də, indi də, gələcəkdə də birləşdirəcəkdir».**

## Dil və onun cəmiyyətdə rolu

Dil insanın və bütövlükdə insan cəmiyyətinin formalaşması və inkişafı üçün əvəzolunmaz bir vasitədir. İnsan digər canlılardan fərqli olaraq fikirlərini, hisslərini və düşüncələrini ifadə edə bilmək qabiliyyətinə malikdir. Bu qabiliyyəti mümkün edən əsas amil isə dildir. Dil, sadəcə olaraq ünsiyyət qurmaq üçün istifadə olunan texniki bir vasitə deyil. O, həm də mədəniyyətin, mənəviyyatın, milli kimliyin və cəmiyyətin ruhunun daşıyıcısıdır. Tarix boyu dillər dəyişmiş, inkişaf etmiş və zaman-zaman yox olmuşdur. Lakin hər bir dilin arxasında bir xalqın tarixi, mədəniyyəti və düşüncə tərzi dayanır. Buna görə də dilin cəmiyyətdə rolu olduqca böyük və çoxşaxəlidir.

İlk növbədə, dil insanların bir-biri ilə anlaşmasını təmin edən əsas vasitədir. Bu funksiya dilin kommunikativ vəzifəsidir. İnsanlar gündəlik həyatlarında fikirlərini başqalarına çatdırmaq, öz duyğularını ifadə etmək və ya başqalarının fikirlərini anlamaq üçün dildən istifadə edirlər. Əgər dil olmasaydı, insan cəmiyyəti bugünkü inkişaf səviyyəsinə çata bilməzdi. Dil insanlar arasında körpü rolunu oynayır və onların bir-birinə bağlanmasına, birgə fəaliyyət göstərməsinə imkan yaradır. Dil eyni zamanda bir xalqın mədəniyyətinin daşıyıcısıdır. Xalqın tarixi, ədəbiyyatı, folkloru, adət-ənənələri, dini baxışları və mənəvi dəyərləri dil vasitəsilə nəsildən-nəslə ötürülür. Hər bir dilin özünəməxsus deyimləri, atalar sözləri, zərb-məsəlləri və poetik ifadə tərzi var. Bu xüsusiyyətlər xalqın dünyagörüşünü və düşüncə tərzini əks etdirir. Məsələn, Azərbaycan dili zəngin bədii ifadə vasitələri ilə seçilir və bu dilin vasitəsilə xalqımızın əsrlər boyu topladığı mənəvi irs qorunub saxlanılır. Bu baxımdan dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli-mədəni yaddaşın bir növ arxividir.

Dil həmçinin milli kimliyin əsas atributlarından biridir. Bir xalqın öz ana dilinə sahib çıxması, onun varlığının və müstəqilliyinin təməl göstəricisidir. Əgər bir xalq öz dilini qoruyub saxlamasa, onun mədəniyyətinin, tarixi yaddaşının və nəticədə milli kimliyinin itməsi qaçılmaz olar. Buna görə də ana dilinin qorunması və inkişafı hər bir xalq üçün strateji əhəmiyyət daşıyır. Xüsusilə də qloballaşan dünyada böyük dillərin kiçik dilləri sıxışdırdığı bir dövrdə, milli dillərin yaşadılması mühüm bir vəzifədir. Azərbaycanın dövlət dili olan Azərbaycan dilinin də bu gün inkişaf etdirilməsi, təbliğ olunması və tədrisinin gücləndirilməsi milli siyasətin əsas istiqamətlərindən biridir.

Dil cəmiyyətin müxtəlif sahələrində də mühüm rol oynayır. Təhsil sahəsində dil biliklərin ötürülməsi və yeni nəslin formalaşdırılması üçün əsas vasitədir. Elmi fəaliyyət, tədqiqatlar, dərsliklər və digər maarifləndirici vasitələr dilin köməyi ilə həyata keçirilir. Siyasətdə dil ideoloji mesajların çatdırılmasında, ictimai rəyin formalaşmasında və siyasi mobilizasiyada əsas alət kimi çıxış edir. Media və informasiya sahəsində isə dil cəmiyyətin məlumatlandırılmasında, maarifləndirilməsində və ictimai şüurun formalaşdırılmasında istifadə olunur. Digər tərəfdən, dil cəmiyyətin özü tərəfindən də formalaşdırılır. Cəmiyyətin dəyişməsi, yenilənməsi və inkişaf etməsi ilə dil də daim yenilənir. Yeni anlayışlar, texnologiyalar və ictimai hadisələr dilə yeni sözlər və ifadələr gətirir. Eyni zamanda dilin özü də cəmiyyətə təsir göstərərək insanların düşüncə tərzinə və davranışlarına yön verir. Bu qarşılıqlı əlaqə dil və cəmiyyət arasında sıx bir münasibətin olduğunu göstərir.

Azərbaycan dili — Azərbaycan xalqının mənəvi sərvəti, milli kimliyinin ayrılmaz hissəsi və mədəni irsinin əsas daşıyıcısıdır. Bu dil yalnız Azərbaycan Respublikasında deyil, eyni zamanda Cənubi Azərbaycanda, həmçinin

dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar tərəfindən də ana dili kimi istifadə olunur. Hal-hazırda 50 milyondan artıq insan Azərbaycan dilində danışır ki, bu da onu dünyanın geniş yayılmış dillərindən biri edir.

Azərbaycanın Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili rəsmi dil kimi təsdiqlənmişdir. Bu isə o mənaya gəlir ki, ölkədəki bütün dövlət qurumlarında yazılı və şifahi kommunikasiya məhz bu dildə həyata keçirilməlidir. Dövlət, Azərbaycan dilinin qorunmasına və inkişafına daim xüsusi önəm vermişdir:

- **12 noyabr 1995-ci il** – Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili kimi təsdiq edildi;
- **18 iyun 2001-ci il** – "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalandı;
- **4 iyul 2001-ci il** – "Azərbaycan Respublikasında Dil Komissiyasının yaradılması haqqında" Sərəncam verildi;
- **9 avqust 2001-ci il** – "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü"nün təsis edilməsi haqqında Fərmanına əsasən hər il **1 avqust** Azərbaycan Dili Günü kimi qeyd edilir;
- **30 sentyabr 2002-ci il** – "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Qanun qüvvəyə mindi. Bu Qanuna əsasən, dövlət dilinin əlifbası latın qrafikalı Azərbaycan əlifbasıdır;
- **2 yanvar 2003-cü il** – "Dövlət dili haqqında" Qanunun tətbiqi ilə bağlı Fərman imzalandı;
- **23 may 2012-ci il** – Prezident İlham Əliyev "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair" Sərəncam verdi;
- **9 aprel 2013-cü** – Prezident "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifa-

dəsinə və ölkədə dilçiliyin inkişafına dair” Dövlət Proqramını təsdiq etdi.

Müstəqillik şəraitində ölkənin dövlət siyasəti dilin ən mühüm ünsiyyət vasitəsi kimi tam fəaliyyət göstərməsi üçün şəraitin təmin edilməsinə yönəlmişdir. Ümummilli Liderimiz Heydər Əliyevin dilə qayğısı nəticəsində Azərbaycan dili bütün dövlət strukturlarında, idarə və müəssisələrdə, təhsil ocaqlarında həm yazılı, həm də şifahi işlədilməsi geniş şəkildə tətbiq edilməkdədir:

1. Belə məqamda hər bir Azərbaycan ziyalısı, gənci öz doğma dilində məharətlə çıxış etmək, nitq söyləmək bacarıqlarına yiyələnmək üçün öz ana dilinə dərindən bələd olmalıdır.

2. Nitq prosesində insanın nitq mədəniyyəti mühüm rol oynayır. Onun vəzifələrindən biri dinləyicisinə xoş təsir bağışlamaqdır, insanın nitqinə əsasən onun mənəvi və intellektual inkişaf səviyyəsi, daxili mədəniyyəti haqqında fikir söyləmək mümkündür. Deməli, gözəl nitqə sahib olmaq üçün insan danışdığı dilin lüğət tərkibini, ədəbi dilin normalarını, üslubiyyatını bilməklə yanaşı paralinqvistik vasitələrdən məharətlə istifadə etməyi bacarmalıdır.

3. Müasir Azərbaycan gənci “soft skills” – yumşaq bacarıqlara malik olmalı, nitq texnikalarından – səs, nəfəs, surət, pauza düzgün istifadə etməli, xarici görünüşünə, duruşuna önəm verməlidir.

4. Spontan nitqlərini inkişaf etdirmək üçün mütaliə və məşqlər etməlidir.

## I mövzu:
## Ritorika fənninin predmeti, məqsəd və vəzifələri, tarixi, başqa elmlərlə əlaqəsi. Natiqlik sənəti, sahələri və əsas xüsusiyyətləri.

### Plan:

1. *Ritorika fənninin predmeti, məqsəd və vəzifələri. Nitq ritorikanın predmeti kimi.*
2. *Natiqlik sənətinin yaranma tarixi. Qərbdə, Şərqdə, Azərbaycanda ritorikanın inkişafı və özünəməxsus xüsusiyyətləri.*
3. *Ritorikanın başqa elmlərlə əlaqəsi.*
4. *Natiqliyin sahələri. Təfəkkür mədəniyyəti. Nitqin məntiqi.*
5. *Natiqliyin əsas xüsusiyyətləri, nitqin keyfiyyətləri.*

**Yazılı tapşırıq:**

1. Dil və söz haqqında atalar sözü, görkəmli şəxsiyyətlərin kəlamları.
2. Heydər Əliyevin aşağıdakı sözlərini əsas götürərək esse yazmaq:
   - ✓ "Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir". (H.Əliyev)
   - ✓ "Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir". (H.Əliyev)

### Özünü yoxlama sualları:

1. Ritorika fənni bizə nəyi öyrədir?
2. Ritorika fənninin məqsəd və vəzifələri hansılardır?
3. Ritorikanın inkişafı hansı istiqamətlərdə aparılmışdır?

4. Ritorikanın tarixi haqqında nə bilirsiz və görkəmli natiqlər kimlərdir?
5. Yunanıstanda natiqliyin inkişafına təsir edən amilər hansılardır?
6. Aristotelin “Ritorika” əsəri neçənci ildə yazılmışdır və neçə hissədən ibarətdir?
7. Elmi ritorikanın kateqoriyaları haqqında nə bilirsiz?
8. Demosfen kimdir?
9. Azərbaycanda natiqlik, sözün qüdrəti haqqındakı fikirlər.
10. Ritorikanın hansı elm sahələri ilə əlaqəsi var?
11. Natiqliyin hansı sahələri mövcuddur?
12. Məhkəmə natiqliyinin əsas xüsusiyyətləri hansılardır?
13. İctimai-siyasi natiqlik və siyasi diskurs dedikdə nə başa düşürsünüz?
14. Akademik natiqliyin hansı xüsusiyyətləri var?
15. Təfəkkür mədəniyyətinin nitqə təsiri haqqında nə deyə bilərsiz?
16. Nitqin məntiqi və məntiqin təfəkkür formaları hansılardır?
17. Məntiqin şifahi nitqin qarşısında hansı tələbləri var?
18. Mədəni nitqin qarşısında duran tələblər hansıdır?
19. Gözəl, bəlağətli nitqin nə kimi əhəmiyyəti var?
20. Nitqin aydınlığı və səlisliyini nə poza bilər?
21. Nitqin lakonikliyi nəyə xidmət edir?
22. Nitq zamanı dəqiqlik və düzgünlüyün əhəmiyyəti nədən ibarətdir?
23. İnsanın psixoloji durumunun nitqə təsiri varmı?

## Motivasiya:



**Dolaşıq danışmağı hamı bacarır, aydın danışmağı isə çox az adam.**

Qalileo Qaliley (1564- 1642) italyan alimi

Sual: Aydın, gözəl, səlis danışmaq üçün nəyi bilmək lazımdır? (fərziyyələr alınır)

## Natiqlik bacarıqlarının inkişaf etdirilməsi yolları

Natiq olmaq üçün vacib amillər haqqında müxtəlif alimlərin fikirlərini öyrəndikdən sonra belə qənaətə gəlmək olar ki, çıxışa qədərki yaranış mərhələsindən, çıxışa hazırlıq, səhnədəki xarici görünüş və nitq bacarıqlarının düzgün idarə edilməsinə kimi görülən bütün işlər mükəmməl nitqin həyata keçirilməsinə xidmət edir.

Nitq söyləyən zaman hər kəs öz fikrini düzgün, dəqiq və aydın şəkildə ifadə etməklə yanaşı, onu təsirli, emosional və inandırıcı şəkildə dinləyicilərə çatdırmağı bacarmalıdır. Nitq vasitələri ilə topluluğun qəlbinə və düşüncəsinə nüfuz etmək vacibdir. Parlaq, orijinal, həmçinin ifadəli nitq dinləyənlərin hisslərinə təsir göstərir, onların diqqətini çəkir və məzmunun yaxşı başa düşülməsinə kömək edir. Tələbələr bu səbəbdən müəllim-natiqin mühazirələrindən məmnun qalırlar, çünki onların danışığı həm

aydın, həm də məzmunludur. Bu danışıq güclü məntiqə, tutarlı söz və cümlələrə əsaslanmaqla yanaşı, həm də inandırıcı, təsirli və emosional olur.

Ünsiyyət bacarığı, çıxış etmək bacarığı hər bir fərdin, ziyalının həm şəxsi münasibətlərdə, həm də professional münasibətlərdə vacib məsələlərdəndir. İş prosesində insan öz nitq qabiliyyətinin gözəlliyi ilə daha professional görünəcək, həm də daha təsirli münasibət qurmağı bacaracaqdır. Hətta telefon zənglərində heç tanımadığımız insan haqqında ilk təəssüratı onun nitqi ilə dəyərləndirə bilirik.

Gözəl nitq qabiliyyəti insanların hər hansı məsələ haqqında düzgün fikir söyləməsinə, fikirlərini doğru şəkildə ifadə etməsinə, problemi daha səmərəli şəkildə həll etmələrinə zəmin yaradır. Təsirli nitq bacarığına sahib olan insan digərlərindən seçilir və bu ona bir çox müxtəlif situasiyalarda üstün cəhətlər yaradır. Güclü danışıq qabiliyyəti olan insanlar bütün məsələlərin həll yollarını tapmaqda çətinlik çəkmir.

Gözəl nitqə sahib olan insan psixoloji cəhətdən rahat olmalıdır. Dil dilçiliyin, nitq isə psixologiyanın tədqiqat obyektidir. Ən vacib psixoloji məqamlardan biri insanlara empatiya hissinin və hər hansı hadisəyə qarşı tərəfin gözü ilə baxmaq bacarığının olmasıdır. Nitq söyləyərkən empatiya nəyə kömək edir? Natiqin dinləyicilərin baxış bucağını görməsinə və nitqini emosional ehtiyaclarına uyğun şəkildə qurmasına, dinləyicilərlə daha güclü əlaqə qurmasına kömək edir. Yaxşı natiq, eyni zamanda insanları dinləmə bacarığına sahib olmalı, onların baxış bucağını başa düşməlidir. Bu bacarıq sayəsində o, mübahisəli mövzuları ələ alarkən qarşı tərəfin fikirlərini başa düşə bilir. Qarşındakı insan mübahisə əsnasında sənin onun tərəfində olduğunu hiss etməyə başlasa, o artıq özünü güvən-

də hiss edəcək və özünü müdafiə etməyə məcbur hiss etməyəcək.

İkinci psixoloji məqam natiqin danışdığı mövzu ilə bağlı biliyə sahib olmasıdır. Bəzi insanlar danışmaq istədiyi mövzu ilə bağlı geniş biliyə sahib olur, lakin bildiklərini ifadə edib fikirlərini insanlara çatdırmaqda çətinlik çəkir, danışığı təsirli olmur. Bunun üçün insan danışarkən jestini, mimikasını, tərzini, səs tonunu təsirli şəkildə ifadə etməyi bacarmalı, öz dinləyicilərinə təsir edə bilməlidir. İnsan öz danışdığı mövzuya marağı olduğunu dinləyiciyə göstərməyi bacarmalı və onu inandırmalıdır. Təsirli nitq söyləmək bacarığı, fikirlərini doğru şəkildə ifadə etmək bacarığı dinləyicinin diqqətinin mövzuya yönəldilməsinə səbəb olan amillərdəndir.

Emosional zəkaya sahib olmaq da psixoloji məqamlardan biridir. Natiqin emosional zəkası ona üstün cəhətlər verir. Emosional zəka insanların duyğularını anlama, hisslərini başa düşmə, idarə etmə və onlara təsir etmə bacarığıdır. Bu bacarıqlar insanın özünü və başqalarını daha yaxşı tanımasına və qarşılıqlı əlaqələrini daha sağlam şəkildə qurmasına kömək edir. Emosional zəkası yüksək olan bir insanın empatiya qabiliyyəti də yüksək olur. Bu zaman dinləyicilərin emosional vəziyyətini daha yaxşı başa düşmək olur. Həmçinin, emosional zəkası yüksək olan natiq hisslərini təsirli şəkildə idarə edə bilir. Öz həyəcanını və ya qəzəbini idarə etmək natiqin nitqinin axınını pozmadan tutarlı şəkildə danışmasına səbəb olur.

Emosional zəka nə qədər yüksəkdirsə, bədən dilindən istifadə də bir o qədər kamilləşir. Şüuraltı olaraq düzgün jestlərdən istifadə etməyə başlayır və beləliklə, dinləyicinlə daha yaxşı bağ qurmuş olursan. Emosional zəkanın üstünlüyü bir də ondadır ki, dinləyicinin reaksiyasını öncədən müəyyənləşdirirsən.

Müasir dövrdə uğur əldə etmək üçün bilik və bacarıqla yanaşı “soft skills” (yumşaq bacarıqlar) – həyat problemlərini həll etməyə və digər insanlarla işləməyə kömək edən bacarıqlar olmalıdır. (dərketmə, kommunikasiya, emosional zəka və s.) “Soft skills” terminini “hard skills” (iş prosesində konkret problemləri həll etmək üçün lazım olan peşəkar bacarıqlar) terminə qarşı istifadə olunur. Peşə bacarıqlarının olması mütləqdir, yumşaq bacarıqlar isə sizi hamıdan fərqli edir. Yumşaq bacarıqlara şəxsi və kommunikasiya bacarıqları, insanları idarə etmək bacarıqları aiddir. Yaxşı mütəxəssis, natiq üçün də bu bacarıqların olması mütləqdir. İnsanları öz nitqinlə, dünyagörüşünlə, effektiv ünsiyyətinlə ələ almaq, həmçinin dinləmək, bədən dili, mimika və səs tonunun uyğunlaşdırılması qabiliyyətini də əhatə edir. Ünsiyyət bacarığının yüksək olması üçün İQ-intellekt zəka, emosional zəka da xüsusi əhəmiyyət kəsb edir.



## Söz haqqında fikirlər, aforizmlər, atalar sözləri

- ✓ Söz insana, insan söylədiyi sözə yaraşmalı...
- ✓ Söz var incidir, söz var incidir.
- ✓ *Qılınc yarası sağalar, Söz yarası sağalmaz.*
- ✓ Tərbiyə ananın qucağından başlayır, hər danışılan söz uşağın şəxsiyyətinə qoyulmuş bir kərpicdir.

*Namiq Kamal*

- ✓ Söz böyük şeydir. Ona görə böyükdür ki, sözlə insanları birləşdirmək də olar, ayırmaq da, sözlə məhəbbət də qazanmaq olar, ədavət və düşmənçilik də.

*Lev Tolstoy*

- ✓ İnsanda gözəl olan üzdür,
  Üzdə gözəl olan gözdür,
  Amma insanı insan edən,
  Ağzından çıxan sözdür.

*Ömər Xəyyam*

- ✓ İnsanı ən qısa yolla tanıdan və keyfiyyətini göstərən dildir.

*Cəlaləddin Rumi*

- ✓ Dil insanı ölçmək üçün vasitədir. İnsan öz dilinin altında gizlənmişdir, danışmağa başlayarkən kim olduğu bilinir.

*Həzrət Əli*

- ✓ Dili qiymətdən salar ucuz söz, hiylə, böhtan.
  Elə saxla dilini, nə dil səndən utansın, nə sən dilindən utan!

*Rəsul Rza*

- ✓ Danış səni tanıyım.

*Sokrat*

- ✓ *Söz var kəsər savaşı,*
  *Söz var kəsdirər başı.*

*Şah İsmayıl Xətai*

**Söz**

Əzəl başdan açarıdır sirlərin,
Öz gücünü ürəklərdən alar söz.
Nəşə verər, sevinc verər, qəm verər,
Müşkül olan dərdə çarə qılar söz.

Çeşmə olub qaynayaraq o axar,
Beyinlərdə silinməz iz buraxar.
Alov kimi gah yandırar, gah yaxar,
hər könüldə bir od, ocaq qalar söz.

İlk həmdəmdir, ilk silahdır hər kəsə,
Əgər ki, o, saf poladdan deyilsə.
Hər kəlməsi öz yerində deyilsə,
Qılınclardan daha kəskin olar söz.

Söz ucaldar bu cahanda insanı,
Əzizləyər bu cahan da insanı.
Vaxt olar ki, bircə anda insanı
Əlli ilin hörmətindən salar söz.

Çalış Nəbi, gecə-gündüz yarat sən,
Bəd sözləri öz sinəndən yar, at, sən.
İnci seçib, dürr toplayıb yaratsan,
Səndən eldə bir nişanə qalar söz.

*Nəbi Xəzri*

## Söz

Sözə kim versə dəyər ruhuna feyziyabdı söz,
Sözünün qədrini bilməyənçün iztirabdı söz.

Kim ola arif əgər zahirə verməz qiymət,
Zahiri ali olandan da alicənabdı söz.

Allah öz fikrini sözlə çatdırıb Quranda,
Bu səbəbdən də ibadət sayılır, savabdı söz.

İnsanın əzaları tab edər hər yarələrə,
Amma xəncər yarasından daha çox əzabdı söz.

Füzuli qədim dövrlərdə yazıb söz qəzəlin,
Nihadın yazdığı ilə bir qədər inqilabdı söz.

*Nihad Abbasov "Kursant qələmi" dərnəyinin üzvü (2024-cü il məzunu)*

## Demosfenin natiqliyi haqqında hekayə

Qədim Yunanıstanda, Afina şəhərində yaşayan Demosfen adlı gənc bir şəxs vardı. Uşaqlıqdan zəif səhhəti və nitq qüsuru səbəbilə çoxları onu ciddi qəbul etməzdi. O, tez-tez kəkələyir, sözlərini düzgün ifadə edə bilmirdi. Halbuki ruhunda böyük istək və güclü iradə var idi — o, dövrünün ən görkəmli natiqlərindən biri olmaq arzusunu daşıyırdı. Çoxları onun yaxşı natiq ola bilməyəcəyini düşünürdü. Hətta məşhur müəllimi Qorqiya (Gorgiya) onu bu səbəbdən natiqlik təhsilindən uzaqlaşdırmışdı. Amma Demosfen bu mənfi fikirlərə rəğmən, öz üzərində yorulmadan çalışaraq, bu qüsurlarını aradan qaldırmaq qərarına gəlmişdi.

Demosfen əsasən məhkəmə çıxışları və siyasi nitqləri ilə tanınırdı. O, Atina demokratiyasının inkişaf etdiyi dövr-

də vətənini müdafiə etmək üçün güclü nitqlər söyləyirdi. Məhkəmə proseslərində onun arqumentləri məhkəmə iştirakçılarını inandırır və hakimləri tərəfinə çəkirdi. Dövlət işlərində də onun sözləri böyük nüfuz qazanırdı. O, xüsusilə Atinanın xarici siyasətində və daxili idarəçiliyində fəal iştirak edirdi.

Demosfenin nitqləri həm məntiqə, həm də duyğuya əsaslanırdı. O, insanları yalnız ağılla deyil, eyni zamanda ürəklə də inandırmağı bacarırdı. Nitqində sadə, anlaşılan və təsirli ifadələrdən istifadə edərək, mürəkkəb fikirləri belə hər kəsin başa düşəcəyi şəkildə çatdırırdı.

Demosfen natiqlik sənətini öyrədən, təlimat verən və gələcək natiqlər üçün nümunə olan şəxs idi. Onun nitq metodları və prinsipləri sonrakı dövrlərdə də istifadə edilmiş, ritorikanın inkişafında böyük rol oynamışdır. O, nitqdə aydınlıq, səlislik və məntiqliliyi önə çəkirdi.

Demosfenin əsas prinsipləri arasında nitqin məntiqi ardıcıllığı, sadə və anlaşıqlı dil, emosional təsir və dinləyicilərin ruh halına uyğun nitq, nitqin məqsədəuyğunluğu və inandırıcılığı vardı. O, həmçinin nitqin müxtəlif janrlarını — məhkəmə, siyasi, tərbiyəvi nitqləri — mükəmməl şəkildə ifa edirdi.

Demosfen həm zəifliklərinə qalib gəlməsi, həm də nitq sənətinə verdiyi töhfələr baxımından tarixdə özünəməxsus yer tutur. Onun həyatı bizə göstərir ki, istedad təkbaşına yetərli deyil, səylə işləmək və iradə ilə zəhmət çəkmək olmadan uğur əldə etmək mümkün deyil.

Onun əzmkarlığı və zəhməti natiqlik sənətinin inkişafına və ümumilikdə nitq mədəniyyətinin yüksəlməsinə mühüm təsir göstərmişdir. Demosfen adı bu gün də natiqlik sənətinin zirvəsi kimi tanınır və onun həyatı tarix boyunca bir çox natiq və siyasətçiyə örnək olmuşdur.

# Dostoyevskinin "Cinayət və cəza" əsərində məhkəmə nitqinin məzmunu və analizi

**Analitik düşüncənin inkişaf etdirilməsi üçün əsərləri və ya baş vermiş hadisələri analiz etmək, təhlil etmək. Qısa məzmun:**

Romanın əsas qəhrəmanı Raskolnikov, bir faizçini (pul verən qadını) və onun bacısını öldürür. Cinayət motivi — insanın mənəvi və əxlaqi hüququ ilə bağlı fəlsəfi düşüncələrə əsaslanır. Sonda vicdan əzabı ona qalib gəlir və o özü təslim olur.

**Məhkəmə nitqinin xüsusiyyətləri:**

**1.** Psixoloji və mənəvi təhlil:

- ✓ Məhkəmə nitqlərində əsas diqqət cinayətkarın psixoloji vəziyyətinə və vicdan əzabına yönəlib.
- ✓ Prokuror və hakim faktlara əsaslansa da, vəkil daha çox Raskolnikovun peşmançılıq hissinə, ailəsinin vəziyyətinə, gənc yaşına və cinayətdən sonrakı davranışına istinad edir.

**2.** İnsanlıq və ədalət:

- ✓ Dostoyevski burada ədalətin yalnız qanunla deyil, vicdan və insanlıqla ölçülməsi fikrini də qabardır.
- ✓ Bu səbəbdən Raskolnikov ölüm hökmü deyil, 8 il Sibirə sürgün cəzası alır.

**Analitik baxış:**

| Cəhət | İzah |
|---|---|
| **Emosional təsir** | Vəkilin nitqi oxucunun rəğbətini oyadır. Vəkil Raskolnikovun cinayətkar yox, daxili mübarizə aparan bir insan olduğunu vurğulayır. |
| **Məntiq və hüquq** | Prokuror faktları ardıcıl təqdim edir, lakin insanlıq prinsipi üstün gəlir. |
| **Ədəbiyyatdakı rolu** | Bu səhnə ədalətin yalnız qanun deyil, mənəviyyat və vicdanla bağlı olduğunu göstərir. |
| **Oxucuya təsiri** | Oxucu cinayəti qınasa da, Raskolnikova qarşı mərhəmət hiss edir. Bu da Dostoyevskinin ustalığıdır. |

**Nəticə:**

"Cinayət və cəza" əsərində məhkəmə nitqi sadəcə hüquqi proses deyil — mənəvi məhkəmədir. Bu səhnə oxucunu düşünməyə vadar edir: “Hər cinayətkar həmişə qatil kimi cəzalanmalıdırmı? Vicdanın səsi qanundan önə keçə bilərmi?”

## Çıxışa hazırlıq zamanı mühüm olanlar

Şüuraltı ilə söhbət də insanı çıxışa hazırlayan mühüm vasitələrdəndir. Şüuraltı 99% bizi idarə edir. İnsanlarda hələ vərdiş halını alana kimi çıxışdan öncə həyəcan, qorxu olur. Bunun səbəbi “Bəlkə hər şeyi unutdum? Yaxşı hazırlaşmamışam? Görəsən mənə qulaq asacaqlar?” və

s. sualları özümüzə verməklə şüuraltında düşünürük. Və bu bizi həyəcanlandırır.

Bəs şüuraltını necə razı salaq? Həyəcanın, qorxunun azalması üçün nə edək? Praktik olaraq aşağıdakıları həyata keçirmək:

- ✓ özümüzə güvən verməklə;
- ✓ düşüncələrimizi dəyişməklə;
- ✓ əlimizlə həyəcanı sanki çırpıb özümüzdən uzaqlaşdırmaqla;
- ✓ əzələləri gərginləşdirib boşaltmaqla;
- ✓ dərindən nəfəs alıb-verməklə;
- ✓ çobanyastığı (papatya) metodundan istifadə edərək söz bazamızı, təfəkkürümüzü inkişaf etdirməklə;
- ✓ auditoriyanın əhəmiyyətini azaltmaqla və ya öz əhəmiyyətini artırmaqla;
- ✓ auditoriyaya dost kimi baxmaqla;
- ✓ bizi dəstəkləyənlərə baxmaqla və s.

Stresli və çətin vəziyyətlərdə nitqimizi qorumaq, onu həmişəki kimi saxlamaq üçün bizə nə lazımdır? Stresimizi yaxşı idarə edə bilmək. Bax elə yenə də burada araya emosional zəkanın vacibliyi girir. Emosional zəkası yüksək olan insan stresli vəziyyətlərdən çıxa bilir və eyni zamanda öz danışıq qabiliyyətinin keyfiyyətini də qoruyur. Çünki o stres yaradan ünsürlərin səbəblərini bilir və səbəbləri bildikdən sonra öz daxilində baş verən proseslərdən xəbərdar olmuş olur. Həmin proseslər ən azından onda qorxu yaratmır. Adrenalin yüksəlsə belə qorxu hissini özündən qovmur, çünki bu prosesə hansı faktorların səbəb olduğunu bilir. Beləcə özünü daha yaxşı idarə edir, vəziyyətin içərisindən çıxır. Belə vəziyyətlər təkrarlandıqca qorxu azalır, təcrübə artır, artıq hansı situasiyada necə hərəkət etməli olduğunu daha yaxşı başa düşür, tətbiq edirsən. Ona görə də emosional zəka çox vacibdir.

Nitq qabiliyyətini inkişaf etdirməyin ən gözəl tərəflərindən birisi də beyin sağlamlığının dəstəklənməsidir. Zehni olaraq aktiv qalmaq beyin funksiyalarını qorumağa kömək edir. Əgər bir insan gözəl nitq qabiliyyətinə malikdirsə və bunu getdikcə inkişaf etdirirsə, hələ üstəlik yeni bir dil öyrənirsə, həmin dildə də səlis şəkildə danışmağa çalışırsa beyində davamlı olaraq bir qıcıqlanma meydana gəlir. Beyini işləməyə məcbur etmək, dil qabiliyyətlərindən istifadə etmək, yeni sözlər öyrənmək, uzun cümlələrin təbiətini başa düşmək və yaradıcılıq kimi fəaliyyətlər beyin üçün idman kimidir. Eyni şəkildə gözəl danışan bir insan sosial əlaqələrdə də öndə olur. Çünki bir çox insandan daha yaxşı şəkildə özünü və hisslərini ifadə edə bilir. Hətta nəinki öz hisslərini ifadə etmək, bəzən başqalarının hisslərini də ondan daha yaxşı ifadə etmək mümkün olur.

## İnsanın yerləşdiyi zonanın nitqə təsiri. Şüuraltı qorxunun aradan qaldırılması.

Gözəl danışmaq üçün ilk növbədə qorxunu özümüzdən uzaqlaşdırmalıyıq. Əgər qorxu olarsa inkişaf etmək olmur. 3 zona mövcuddur: komfort, diskomfort, vəhşət. Komfort zona bizim evimiz, iş yerimiz və ya dostlarla bir yerdə olmaq buna misal ola bilər. Bu zonaya o qədər vərdiş etmişik ki, qorxu olmur, özümüzü rahat hiss edirik, inkişafdan qalırıq.

Komfort zonada – Qorxu = 0<br>İnkişaf = 0

Diskomfort zonada tanımadığın insanların arasında olursan. Həmişə olduğun konfortdan çıxırsan. Uyğunlaşana kimi qısa qapanma baş verir, özünü narahat hiss edirsən.

Diskomfort zonada - Qorxu = minimal<br>İnkişaf = maksimal

Vəhşət zonası isə toplum önündə çıxış edən, bacarıqlarını nümayiş etdirən zaman baş verir. Burada insanın bədən dili də onun qorxduğunu göstərir.

Vəhşət zonasında - Qorxu = yüksək
İnkişaf = minimal

Buna görə özümüzə güvənc və bədən dilinin nümayişkaranə olması mütləqdir. İnsan öyrədəndə daha çox öyrənir. Biz danışarkən şüuraltı özümüzü komfort zonada hiss etməliyik. Əgər çıxış edəcəyimiz kürsüdə vəhşət zonasında özümüzü hiss edəcəyiksə inandırıcı danışmayacaq, jest və mimikalarımızdan qorxduğumuz hiss olunacaq, səsimiz titrəyəcək və nitqimiz yad ünsürlərlə zəngin olacaq.

## Təcrübi məşğələ:

### *Söz asossiasiyası (çobanyastığı metodu*)

İstənilən məsələ haqqında danışmaq üçün bu metoddan istifadə edərək spontan nitqlərimizi inkişaf etdirə bilərik. Məsələn: Əgər dil haqqında danışsaq hansı məsələlərə toxunacağıqsa çobanyastığının ləçəklərinə onu yazırıq: ünsiyyət vasitəsi, tarixi və formalaşması, genoloji və tipoloji xüsusiyyətləri, lüğət tərkibi, nitq mədəniyyəti, əlifba və s. Hər ləçək haqqında bir abzas danışırıq. Hər söz haqqında düşüncələrimizi çobanyastığıya çeviririk və beləliklə, düşüncəmizdə sözlər haqqında nə bilirik?, bunu nə ilə əlaqələndirə bilərik? kimi suallara cavab tapmış oluruq. Daha çox söz bilmək insanın baxış bucağını da genişləndirir. Bu səbəbdən mümkün olduqca fərqli-fərqli mövzularda oxumaq, öyrənmək gərəklidir.




**MƏNTİQİN ŞİFAHİ NİTQƏ AİD TƏLƏBLƏRİ**

- Müəyyənlik, aydınlıq;
- Ardıcıllıq;
- Ziddiyyətsizlik;
- Əsaslandırma.

***Təcrübi məşğələ:***

1. Kiçik qruplarda 1 dəqiqəlik çıxışlarla diaqnostik qiymətləndirmə.

2. Spontan nitqlərin inkişaf etdirilməsi yolları.

3. Ədəbi parçaların oxusu və səsin tənzimlənməsi.

**Çıxışa nümunə:**

**Çıxışın məqsədi:** Bu nitqin əsas məqsədi Azərbaycan xalqının tarixi ədalətsizliyə qarşı mübarizəsini, torpaqları-

mızın işğaldan azad olunmasını, Böyük Qayıdış prosesinin uğurla həyata keçirilməsini və xalqın birliyinin, dövlətin gücünün təbliğini əhatə edir. Çıxış:

- Tarixi şüurun formalaşmasına;
- Qələbənin qədrini bilməyə;
- Şəhidlərə və qazilərə minnətdarlığa;
- Böyük Qayıdış prosesinə inam və dəstəyə;
- Milli həmrəyliyin gücləndirilməsinə xidmət edir.

**Çıxışın planı:**

1. Tariximizin qanlı səhifələri;
2. İşğal və qayıdış arzusu;
3. Zəfər tarixi: 44 günlük Vətən müharibəsi;
4. Böyük Qayıdış proqramı və yenidənqurma

## MÖVZU: Böyük Qayıdış – tarixi haqqın bərpası

**Giriş:** Hörmətli dinləyicilər, hər birinizi salamlayıram.

Bugünkü çıxışım Azərbaycan xalqının öz doğma yurduna – Qarabağa və digər işğaldan azad edilmiş torpaqlara qayıdışı mövzusuna həsr olunub.

Tarixi mənbələr sübut edir ki, erməni millətçilərinin türk xalqlarına qarşı düşmənçilik siyasəti artıq 200 ildən çoxdur davam edir. 1905-1906 və 1918-1920-ci illərdə İrəvan, Zəngəzur, Göyçə, Tiflis, Naxçıvan, Bakı, Şamaxı, Quba və digər bölgələrdə minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib, xalqımız soyqırıma məruz qalıb. Bu əməllər açıq-aşkar terrorçuluq və faşizm siyasətinin təzahürüdür.

**Əsas hissə:** Ulu Öndər Heydər Əliyev bu soyqırım siyasətinə ilk dəfə siyasi-hüquqi qiymət vermiş, tarixi faktların obyektiv şəkildə araşdırılması üçün mühüm fərman və sərəncamlar imzalamışdır.

1923-cü ildə Qarabağın dağlıq hissəsində yaradılmış erməni muxtariyyatı zamanla Azərbaycanın ərazi bütövlüyünə qarşı istifadə olundu. SSRİ-nin süqutu dövründə düşmən qüvvələr xarici havadarlarına arxalanaraq Dağlıq Qarabağ və ətraf rayonları işğal etdilər. Ordu quruculuğunun olmaması, daxili siyasi çəkişmələr səbəbindən I Qarabağ müharibəsində müvəqqəti məğlubiyyət yaşadıq.

Amma xalqımız hər zaman ümidini itirmədi. Çünki bilirdik: “Bu hələ son deyil.” 2020-ci ilin 27 sentyabrında başlanan və cəmi 44 gün davam edən Vətən müharibəsi Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Şuşanın azad olunması isə bu savaşın dönüş nöqtəsi oldu. Dağlarla əhatələnmiş, təbii istehkam sayılan şəhər qəhrəman əsgərlərimizin əlbəyaxa döyüşü ilə düşməndən azad edildi.

Prezident İlham Əliyevin sözləri ilə desək: **“Biz güclü dövlətik. Düşməni diz çökdürdük!”**

Bəli, bu, təkcə hərbi deyil, informasiya müharibəsində də qazandığımız qələbə idi. Ali Baş Komandanın siyasi diskursları, tvitləri, beynəlxalq çıxışları erməni təbliğatını ifşa etdi.

Sabir Rüstəmxanlının “Qarabağa dönüş” poemasında da deyildiyi kimi:

“Bu bizim haqq işimiz, ədalət savaşımız,
İntiqam ala-ala dikələcək başımız...
Qayıtsın Qarabağa yenə xoşbəxt çağımız,
Başımızın üstündə üçrəngli bayrağımız!”

Müharibədən dərhal sonra “Böyük Qayıdış” proqramı çərçivəsində azad edilmiş ərazilərdə infrastruktur quruculuğu başlandı. Prezident İlham Əliyevin 2022-ci ilin 13 oktyabrında Astanada etdiyi çıxışında vurğulandığı kimi:

**“Azərbaycan yalnız öz vəsaiti hesabına azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparır. Məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı artıq başlayıb.”**

“Ağıllı kənd” və “Ağıllı şəhər” layihələri yeni dövrün çağırışlarına cavab verən regional inkişaf modelidir.

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində məcburi köçkünlərin problemləri ardıcıl olaraq həll olunur. Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahəyə xüsusi diqqəti, onların sosial müdafiəsinə verdiyi dəstək də xüsusi qeyd olunmalıdır.

**Nəticə və çağırış**

Bu gün Böyük Qayıdış – təkcə fiziki bir yurd həsrətinin sonu deyil, eyni zamanda mənəvi qələbə, tarixi ədalətin bərpasıdır. Şəhidlərimizin ruhu şaddır. Qazilərimizə isə dərin təşəkkür və sağlamlıq diləyirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Qarabağ Azərbaycandır!

Diqqətinizə görə təşəkkür edirəm.

## Praktik çalışmalar

### Dərs 1

- Məşq 1: Nəfəs alın, saxlayın, nəfəs verin.
  2-2-2
  3-3-3
  4-4-4
- Məşq 2: Şamı 1 qarış məsafədə qoy və elə de ki, şam sönməsin: Papi
  p, b, h, k, t, d, ğ – çox hava xərcləyən samitlər
- Məşq 3: Nəfəs tam al, az ver və az al.
  100% - 20%, +20%, artan templə
- Məşq 4: Nəfəs al FFFF deyərək nəfəsi xərclə.

f f f f　　　s s s s
F F F F　　　S S S S
f f f f　　　s s s s (sakit)
F F F F　　　S S S S (təzyiq)

- Məşq 5: Nəfəs al, bitənə kimi Aaaaaaa
  Aaaa..... neçə saniyə?

**Tapşırıq: Çıxış zamanı nitqin aşağıdakı keyfiyyətləri nəzərə alınmalıdır:**



# II mövzu:
# Üslub və üslubiyyat.
# Ədəbi dilin normaları.
# Nitqin növləri, formaları, etiketləri.

## Plan:

*1. Üslub və üslubiyyat anlayışı, üslubiyyatın tarixi.*
*2. Müasir Azərbaycan dilinin funksional üslubları.*
*3.Ədəbi dil, ümumxalq dili, dialekt anlayışları. Azərbaycan ədəbi dilinin normaları.*
*4. Nitqin formaları. Şifahi və yazılı nitqin əsas xüsusiyyətləri.*
*5. Nitq etiketləri, istifadə dairəsi. Müraciət etiketləri.*

## Özünü yoxlama sualları:

1. Üslub və üslubiyyat anlayışını izah edin.
2. Üslubiyyatın tarixi haqqında məlumat verin. Elm kimi üslubiyyat harada və nə vaxt formalaşmışdır?
3. Fərdi üslub nədir?
4. Funksional üslublar hansılardır?
5. Üslubiyyat hansı elmin tədqiqat obyektidir?
6. Aristotel kimdir və üsluba necə qiymət vermişdir?
7. Azərbaycanda üslubiyyat nə vaxt formalaşmışdır və hansı alimlərin rolu olmuşdur?
8. Bədii üslub və onun dil xüsusiyyətləri.
9. Üslubi fiqurlar hansılardır?
10. Bədii ifadə və təsvir vasitələri haqqında məlumat.
11. İlk dəfə yaranan üslub hansıdır?
12. Hansı üslub dilin lüğət tərkibindən tam şəkildə istifadə edə bilir?
13. Elmi üslubun səciyyəvi xüsusiyyətləri hansılardır?

14. Rəsmi-işgüzar üslubun tarixi və xarakterik xüsusiyyətləri hansılardır?
15. Publisistik üslubun tarixi və səciyyəvi cəhətləri hansılardır?
16. Məişət üslubu nitqin hansı formasında aparılır və nə zaman formalaşmışdır?
17. Yeni sözlər və terminlər hansı üslubun vasitəsilə yayılır və nə üçün?
18. Natiqlik üslubu nədir və natiq kimdir?
19. Ümumxalq dili və ədəbi dil anlayışlarını fərqləndirin.
20. Dialekt sözlər nəyə deyilir və neçə yerə bölünür?
21. Ədəbi dilin hansı normaları mövcuddur?
22. Fonetik norma haqqında nə bilirsiniz?
23. Leksik normaya görə hansı sözlərin ədəbi dildə işlənməsi məqbul sayılmır?
24. Qrammatik normaya görə cümlədə sözlərin sırası hansı qaydada düzülür?
25. Qrammatik norma nə zaman pozula bilər?
26. Dil və nitqin fərqli cəhətləri.
27. Azərbaycan dilinin tarixi və əlifbası haqqında nə bilirsiniz?
28. Nitqin neçə tipi var?
29. Daxili nitq nədir və hansı xüsusiyyətləri var?
30. Xarici nitq nədir və hansı xüsusiyyətləri var?
31. Xarici nitq hansı formada təzahür edir?
32. Şifahi ədəbi dil nəyə deyilir?
33. Yazılı ədəbi dil nəyə deyilir?
34. Şifahi və yazılı ədəbi dili bir-birindən fərqləndirən xüsusiyyətlər hansılardır?
35. Nitqin neçə növü var?
36. Dialoji nitq haqqında nə bilirsiniz?
37. Dialoqun neçə forması var?
38. Monoloji nitq nədir və hansı formaları var?

39. Poliloji nitq nədir?
40. Monoloji nitqin forması olan mühazirə haqqında nə bilirsiniz?
41. Məruzə və onların növləri haqqında məlumat.
42. Çıxış monoloji nitqin forması kimi hansı xüsusiyyətlərə malikdir?
43. Təşkil olunmuş nitq və spontan nitq nədir?
44. Ünsiyyət zamanı nitq etiketlərindən istifadənin əhəmiyyəti.
45. Nitq etiketlərinin milli xüsusiyyətləri.
46. Çıxış zamanı hansı nitq etiketlərindən istifadə olunmalıdır?
47. Çıxış zamanı etiket qaydalar haqqında nə bilirsiz?

| Funksional üslublar sistemi | Fərqli əlamətləri | Ortaq əlamətləri |
|---|---|---|
| *Bədii üslub* | Obrazlılıq<br>Emosionallıq | |
| *Elmi üslub* | Məntiqilik, ardıcıllıq, konkretlik, termin sıxlığı | Ədəbi dilin normalarına tabe olmaları |
| *Publisistik üslub* | Kütləvi anlaşıqlılıq, aydınlıq, təsirlilik | |
| *Rəsmi-işgüzar üslub* | Standart formalardan istifadə və arxaik leksika | |
| *Məişət üslubu* | Nitqin sərbəstliyi. təbiiliyi və dioloji nitq | |

## Danışıq mədəniyyətinin üslubi baxımdan əhəmiyyəti

Danışıq və ya çıxış zamanı üslubumuzu müəyyənləşdirmək mütləqdir. Bunun üçün kiminlə, harada, hansı mövzuda danışacağımızı əvvəlcədən bilməliyik.

Danışıq qabiliyyəti iş uğurunda da böyük rol oynayır, çünki ünsiyyət iş dünyasında da təməl bir ünsürdür. İş dünyasında təsirli ünsiyyət bacarıqlarına sahib olmaq bir çox fərqli situasiyada insana üstün cəhət qazandırır. Məsələn, lider olmaq istəyənlər üçün, güclü idarəetmə bacarığı üçün. Yaxşı bir lider pozisiyasını və hədəflərini komandasına konkret bir şəkildə çatdıra bilər, onlara motivasiya verə bilər və əsl mənada rəhbərlik edə bilər. Yaxud işə qəbul zamanı rəsmi və ya elmi üslubda özünü təqdim etdikdə gözəl natiqlik bacarıqlarına sahib olmaq hər bir insan üçün müsbət keyfiyyət kimi dəyərləndirilə bilər.

Gündəlik həyatda, məişət üslubunda da nitq qabiliyyəti olduqca böyük əhəmiyyət daşıyır, çünki ünsiyyət qurmaq münasibətləri gücləndirməyin təməl bir yoludur. Eyni zamanda gözəl nitq sosial münasibətlərdə də, ailədə də, dostlarla və ya həyat yoldaşı ilə də təsirli ünsiyyət hisslərini başa düşmək, empatiya qurmaq, sağlam bağlar qurmaqda da mühümdür.

Rəsmi üslubda danışan hüquqşünasa çatışmazlıqları həll etmək, anlaşılmazlıqları sakit bir şəkildə ələ almaq və mübahisələri idarə etmək üçün yaxşı nitq qabiliyyəti vacibdir.

Akademik natiqlikdə çıxış hazırlamaq üçün elmi üslubun xarakterik xüsusiyyətlərindən – terminlər, modal sözlər, qrafik və cədvəllərdən istifadə edilməsi, fikrin elmi şəkildə ifadə edilməsi zəruridir.

## Yazı mədəniyyəti

Yazı mədəniyyəti insan həyatının ən vacib vəzifələrindən biridir. O, yalnız sözlərin düzgün yazılması deyil, həm də fikirlərin, məlumatların, duyğuların və biliklərin yazılı şəkildə ifadə edilmə sənətidir. Yazı mədəniyyəti fərdin həm təhsilində, həm peşə fəaliyyətində, həm də gündəlik ünsiyyətində böyük rol oynayır. Yazı mədəniyyətinin yüksək olması insanların daha dəqiq və anlaşıqlı fikirlərini çatdırmasına, düzgün kommunikasiya qurmasına kömək edir.

Yazı mədəniyyəti dil mədəniyyətinin ayrılmaz hissəsidir. Dildə olduğu kimi, yazıda da qrammatika, orfoqrafiya (yazılış qaydaları), punktuasiya (nöqtə, vergül və s. işarələrinin düzgün istifadəsi) qaydalarına riayət edilməlidir. Yazıda səhvlər fikrin düzgün anlaşılmamasına, qarışıqlığa və bəzən ciddi yanlışlıqlara səbəb ola bilər. Buna görə də yazı mədəniyyəti yüksək olan insanlar həm elmi, həm də praktiki sahələrdə daha uğurlu olurlar.

Yazı mədəniyyəti yalnız texniki bacarıq deyil, həm də ədəbi zövq və estetikanı özündə birləşdirir. Yaxşı yazı həm sadə, həm aydın, həm də maraqlı olmalıdır. Yazı vasitəsilə fikirlər oxucuya düzgün ötürülməli, onun diqqətini cəlb etməlidir. Bu məqsədlə yazı mədəniyyətində söz seçimi, cümlə quruluşu və ümumi mətn strukturu çox önəmlidir.

Yazı mədəniyyəti məktəbdən başlayaraq formalaşır. Uşaqların düzgün yazmağı, imla qaydalarını öyrənməsi, fikrini yazılı şəkildə ifadə etməsi onların ümumi inkişafına, dil bacarıqlarının artmasına şərait yaradır. Daha sonra peşəkar sahələrdə – jurnalistika, elmi tədqiqat, hüquq və s. yazı mədəniyyətinin rolu daha da artır. Məsələn, yaxşı

yazılmış hüquqi sənəd həm məhkəmədə, həm də hüquqi mübahisələrdə əsaslı arqument ola bilər.

Son dövrlərdə informasiya texnologiyalarının sürətli inkişafı ilə yazı mədəniyyətinin önəmi daha da artıb. Elektron məktublar, sosial şəbəkələrdəki paylaşımlar, rəsmi sənədlər və təqdimatlar düzgün və aydın yazı tələb edir. Yazı mədəniyyətinin zəif olması sosial mediada yanlış anlaşılmalara, peşəkar sahədə isə ciddi problemlərə səbəb ola bilər.

Nəticə olaraq, yazı mədəniyyəti – hər bir insanın üzərində işləməli olduğu, zamanla təkmilləşdirə biləcəyi mühüm bacarıqdır. Yüksək yazı mədəniyyəti cəmiyyətdə qarşılıqlı anlaşmanı artırır, biliklərin, fikirlərin daha effektiv paylaşılmasını təmin edir və insanları daha savadlı və mədəni fərdlər kimi formalaşdırır.

## Dinləmə mədəniyyəti

Dinləmə mədəniyyəti gözəl nitq qabiliyyəti ilə yanaşı insanın qüsursuz bir formada münasibət qura bilməsi üçün önəmlidir. Çünki dinləmə ünsiyyətin təməl daşlarından biridir və həqiqi ünsiyyətdə qarşılıqlı anlayışın və əlaqənin körpüsüdür. Dinləmə mədəniyyəti qarşı tərəfi təsdiq etməkdir, onun düşüncələrini dərk etmək, vaxt ayırmaq, hörmət etməkdir. Çıxış edəni dinləyəndə təkcə onun dediklərini eşitmirsən, eyni zamanda onu dərindən başa düşməyə çalışır, hiss və düşüncələrinə onun baxış bucağından baxırsan. Natiqin dinləmə qabiliyyəti ünsiyyət zamanı ustalıqla işlədiyi nadir zinət əşyalarından biridir. Onun qulaqları sadəcə sözlərin əks-sədasını yox, həmçinin tonların və emosional titrəyişlərin melodiyasını da tutur. Dinləmə mədəniyyəti ünsiyyəti dərinləşdirir, in-

sanları bir-birilərinə daha da səmimiləşdirir və bağları gücləndirir.

Yaxşı dinləyici qarşısındakı insanın hisslərini və düşüncələrini başa düşməyə çalışır. Bu empatiyadan və insanların hisslərini təqdir etmə bacarığından, güvən hissindən xəbər verir. Dinləyici yaxşı dinləmə mədəniyyətinə sahib olduqda qarşısındakı insanın dediklərinə dəyər verir. Onun düşüncələrini ifadə etmə haqqına hörmət edir. Bunu davranışı ilə, hərəkəti ilə göstərir. Bu, insanı getdikcə müdrikləşdirir, emosional zəkasına fayda verir. Hadisələrə müxtəlif baxış bucaqlarından baxa bilən, qarşısındakı insanları dinləməyi bacaran insan hörmətə layiqdir.

Diqqətli dinləyici olmaq qarşımızdakının dediklərinin mənasını bilmək deyil. Eyni zamanda onu dərk etməyə, ona dəyər verməyə əsaslanır. Bu bacarıq bizim empatiya qurmağımıza, emosional zəkamızı inkişaf etdirməyimizə, münasibətlərimizi dərinləşdirməyimizə kömək edir.

Dinləmə mədəniyyəti olmayan bir insan nə qədər səlis şəkildə danışırsa danışsın, onun təsirli ünsiyyət bacarığı yenə də yoxdur. Dinləmə mədəniyyətini artırmaq üçün diqqət etməli olduğumuz bir sıra məsələlər var. Xüsusilə dialoqda olarkən bu taktikalardan istifadə etmək söhbəti daha maraqlı, daha keyfiyyətli edir:

***1. Göz təması qurmaq***

Qarşımızdakı insan danışarkən göz təması qurmaq olduqca vacibdir. Çünki ünsiyyətdə göz təması qurmaq qarşımızdakı insana diqqət etdiyimizi göstərir. Bu da qarşımızdakı insanın özünü dəyərli və anlaşılmış hiss etməsini təmin edir. Həmçinin göz təması qurmaq səmimiyyət ilə də əlaqələndirilir. Təbii ki, burada vurğulanmalı olan əsas nöqtə qarşı tərəfə gözünü zilləyərək baxmaq deyil. Gözünü zilləyib baxmaq ünsiyyət zamanı etik deyildir. Çünki gözünü zilləyərək baxmaqla, sıx aralıqlarla göz tə-

ması qurmaq arasında fərqlər var. Qarşılıqlı olaraq sıx aralıqlarla göz təması qurmaq və ardınca kiçik bir ara vermək qarşımızdakı insanın daha rahat hiss etməsini təmin edir.

Əgər qarşı tərəfə göz ilə nüfuz ediriksə, o zaman gözü zilləyə bilərik. Gözünü zilləyərək baxanda qarşı tərəf bunu təhdid olaraq qavraya bilər və bu onu narahat edə bilər. Biz demək istədiyimiz məqsədə nail ola bilərik.

Deyirlər ki, gözlər insan ruhunun pəncərəsidir. Ancaq bir insanı həqiqətən başa düşmək o pəncərənin arxasındakı mənzərəni görə bilməkdir. Bir şairin misralarında gizli olan hissləri dinləmək kimi qarşımızdakı insanı da dinləmək bir sənətdir.

**2. *Qarşı tərəf nə isə izah edərkən və ya xəbər verərkən başı azacıq önə doğru əymək*** qarşılıqlı əlaqəni möhkəmləndirən amillərdən biridir. Başı azacıq önə doğru əymək qarşı tərəfə "Dediyiniz məsələləri dinləyirəm" mesajını ötürür. Qarşımızdakı insanın yenə özünü daha dəyərli hiss etməsinə şərait yaradır. Bunu edərkən qarşı tərəfin danışığındakı vurğulara da fikir vermək lazımdır. Qarşımızdakı insan mövzudakı hiss və həyəcan bildirən məqamları qeyd edərkən başı sallamaq dialoqda ahəng yaradır. Xüsusən qarşı tərəf maraqla bir şey danışırsa və bu insan bizim həqiqətən dəyər verdiyimiz bir insandırsa, bu jestdən istifadə etmək dialoqumuzun keyfiyyətini artıracaq.

**3. Dialoq aparılarkən izah edilən mövzu ilə bağlı suallar vermək** qarşı tərəfin mövzuya və ya ünsiyyətə daha çox daxil olması ilə nəticələnir. Bu suallar əvvəlcədən düşünülməmiş, ortaya çıxmamış perspektivləri ortaya çıxarır, dialoqun keyfiyyətini artırır.

Yeni birisi ilə tanış olanda, ilkin dialoqlara girəndə suallar vermək ünsiyyət baryerini tez zamanda aşmağa kö-

mək edir. Qarşı tərəfin izahını dərinləşdirmək üçün düzgün və yerində suallar vermək qarşılıqlı əlaqəni daha da artırır.

### *Təcrübi məşğələlər:*

1. Hər üsluba aid çıxışların hazırlanması. Üslubun xüsusiyyətlərinə əməl olunması.
2. Çıxış zamanı nitq etiketlərindən istifadə etmək.
3. Verilmiş mətnlərin üslubunu müəyyənləşdirmək və oxusunu keçirmək.
4. Qarşı-qarşıya gözünü çəkmədən danışmaq.

**Tapşırıq:** ***Sözləri uyğunlaşdır. Söz cütlərini tap!***

**Təsvir:** Sol sütunda **nitq fəaliyyəti növləri**, sağ sütunda isə **xüsusiyyətləri** verilir. Tələbə uyğunluğu tapmalıdır.

| Nitq növü | Xüsusiyyəti |
|---|---|
| Gündəlik nitq | Elmi əsaslara söykənir. |
| Şifahi nitq | Rəsmi münasibətləri ifadə edir. |
| Akademik nitq | Qeyri-rəsmi, sərbəst söhbət edir. |
| İşgüzar nitq | Dinləyici ilə birbaşa təmasda olur. |

- **Ədəbi dil ümumxalq dilinin cilalanmış formasıdır.**
- **Ümumxalq dilindən seçmə və əvəzetmə yolu ilə formalaşan dilə ədəbi dil deyilir.**

- Ümumxalq dili və ədəbi dilin fərqli cəhətlərini cədvəl şəkilində qurun:




***Tapşırıq: Verilmiş şeir parçalarında bədii ifadə və təsvir vasitələrini müəyyənləşdirin.***

1. Tarixə iz qoydular, qələbə qazananlar,
   Qəhrəmanlıq kitabın, hərb dastanın yazanlar.
   Dağları fəth edənlər, zirvəyə ucalanlar,
   Başladılar səfərə.
   Addım-addım irəli 44 günlük zəfərə!

   Otuz il susan silah təmizləyib pasını,
   Əsgərə yoldaş oldu, aldı xalq qisasını.
   Göz önünə gətirib şəhidin anasını,
   Son qoydular kədərə.
   Addım-addım irəli 44 günlük zəfərə!

*İsmayılzadə Güloğlan*
*dərnəyin üzvü 2025 ci il məzunu)*

***Tapşırıq: Verilmiş nümunələrin üslubunu müəyyənləşdirin və ideyanı yeni üsluba çevirərək çıxış hazırlayın:***

- ✓ Peyğəmbər Əfəndimiz belə buyurur: "Adəm övladının bədənində bir ət vardır. O sağlam olarsa, bütün bədən sağlam olar. Əgər o xarab olarsa, bütün bədən xəstə olar. Diqqətli olun! O ət qəlbdir.
- ✓ Hz. Musa "Ey Rəbbim! Hansı qulun sənin yanında şərəflidir?" – deyə sordu. O, cavabında "Bir pisliyi etməyə gücü çatsa da onu etməyən qulum" deyə buyurdu.

***Tapşırıq:*** **Verilmiş şeir parçalarında üslubi fiqurları göstərin:**

1. Elə bir həyat yaşadım ki, Cənnəti də, Cəhənnəmi də...

Həyatın qorxaqları sevmədiyini erkən gördüm və cəsarəti öyrəndim;

Uğuru çalışmadan qazanmağın mümkünsüzlüyünü gördüm və zəhməti öyrəndim;

Ən böyük sərvətin yaxşılıq olduğunu gördüm və insan olmağı öyrəndim;

Xəyanətin ağrısını gördüm və sədaqəti öyrəndim;

Yaradanın sevdiyi bəndələrini imtahanlardan keçirdiyini gördüm və səbri öyrəndim;

Dostların böyük zənginlik olduğunu gördüm və dost olmağı öyrəndim;

Xətalardan ibrət almağın ən yaxşı dərs olduğunu gördüm və özümü öyrəndim;

Birini dünyada hər şeydən çox sevməyin yanlış olduğunu, itirəndə öyrəndim;

*Qənirə Paşayeva*

2. Bir oyaq gecəsi əvəz edilməz,
Çəksəm ölüncə də yükün Anamın.
Məsum ürəyinə yol tapa bilməz,
Nə nifrət, nə pislik, nə kin Anamın.

Cənnətin ən gözəl güllərin dərib,
Ayağı altına əkin Anamın.
Əridib gözümün qaralarını,
Ağaran saçına çəkin Anamın.

*Vüqar Biləcəri*

3. Razıyam, həsrətə, qəmə, hicrana,
Yetər ki mən bilim, sağsan əziz dost.
Üstümdən yel əssə, qopsa fırtına,
Güvənə bildiyim dağsan, əziz dost.

*Samir Əflatunoğlu*

4. Ey nazlı dilbərim, bəri bax.
Yolda qalıb gözlərim, bəri bax,
Deyən aşiq olmuşam, neyləyim?
Canlar alır gözlərin, bəri bax!

Ol ki mənim yanımda, nur saçım,
Həsrətindən tökülübdür, gur saçım.
Sabahım ol, hər gün sənlə göz açım,
Sənsiz qalıb bu gözlər, bəri bax!

*Şahverdiyev Runel*
*dərnəyin üzvü (2025-ci il)*

# III mövzu:
# Ünsiyyət vasitələri və onların nitqdə rolu, əhəmiyyəti. Nitqin məqsədinə görə prinsipləri və növləri.

## Plan:

*1. Ünsiyyət prosesinin ritorik əsasları. Ünsiyyətin funksiyaları, növləri, strategiyaları.*
*2. Ünsiyyət vasitələri: verbal və qeyri-verbal vasitələr.*
*3. Qeyri-verbal vasitələri öyrənən elm sahələri.*
*4. Mimika və jestlərin növləri.*
*5. Nitqin məqsədinə görə növləri.*

## Özünü yoxlama sualları:

1. Ünsiyyət və ünsiyyət səriştəsi nədir?
2. Ünsiyyətin funksiyaları hansılardır?
3. Ünsiyyət prosesi neçə mərhələyə bölünür?
4. Formal və qeyri-formal ünsiyyət nədir?
5. Şaquli və üfüqi ünsiyyəti izah edin və fikrinizi nümunələrlə əsaslandırın.
6. Şəxsiyyətlərarası ünsiyyət nədir?
7. Ünsiyyətin strategiyaları hansılardır?
8. Açıq və qapalı ünsiyyətdən nə zaman və necə istifadə olunur?
9. Ünsiyyətin taktikası dedikdə nə başa düşürsünüz?
10. Ünsiyyət texnikası özündə hansı bacarıqları birləşdirir və bura hansı amillər daxildir?
11. Ünsiyyət vasitələri hansılardır?
12. Verbal vasitələr dedikdə nə başa düşürsünüz və nitqimizin neçə faizini verbal vasitələr təşkil edir?
13. Artikulyasiya nədir?

14. Səsin ifadəlilik keyfiyyətləri dedikdə nəyi nəzərdə tuturuq?
15. Ünsiyyətin qeyri-verbal vasitələri hansı elm sahələrində araşdırılır?
16. Nitqimizin neçə faizini qeyri-verbal vasitələr təşkil edir?
17. Kinesika nəyi öyrənir?
18. Takesika nəyi öyrənir?
19. Proksemika nəyi öyrənir?
20. Məsafə zonaları hansılardır və onları xarakterizə edin.
21. Jest və mimika haqqında nə bilirsiniz?
22. Jestin hansı növləri var?
23. Nitqin məqsədə görə neçə növü var?
24. Məlumatverici nitqin xarakterik xüsusiyyətləri və onun prinsipləri.
25. İnandırıcı nitqin xarakterik xüsusiyyətləri və onun prinsipləri.
26. Məhkəmə nitqlərinin xarakterik xüsusiyyətləri və onun prinsipləri.
27. Çağırışedici nitqin xarakterik xüsusiyyətləri və onun prinsipləri.
28. Ruhlandırıcı nitqin xarakterik xüsusiyyətləri və onun prinsipləri.
29. Salamlayıcı nitqin xarakterik xüsusiyyətləri və onun prinsipləri.
30. Əyləncəli nitqin xarakterik xüsusiyyətləri və onun prinsipləri.
31. Siyasi nitqin xarakterik xüsusiyyətləri.
32. Məzarüstü (xatirə) nitqlərinin xarakterik xüsusiyyətləri.
33. Fərdi nitqin xarakterik xüsusiyyətləri.

## Motivasiya


ADAM VAR Kİ, DİNDİRƏRSƏN CAN DEYƏR,
ADAM VAR Kİ, DİNDİRMƏSƏN YAXŞIDIR.
Ünsiyyət üçün hansı vasitələr var


VERBAL
QEYRİ-VERBAL
Ünsiyyət

## Ünsiyyət vasitələrinin əhəmiyyəti

Uğurun yolu həm də görünüş (bədən dili, jest, mimika, duruş, geyim), söz (məna) və səsdən (ifadə tərzi, nitq hadisələri) ibarətdir:

- Söz - 10%
- Səs - 35%
- Bədən dili - 55%




Şifahi olmayan (sözsüz bağlantı) ünsiyyət — sözlərdən istifadə etmədən məlumat ötürmək deməkdir. Bu, müəyyən üz ifadələri və ya əl jestləri ilə bir fikri bildirməkdən ibarət ola bilər, yaxud göz təması, fiziki yaxınlıq və digər qeyri-şifahi işarələrdən istifadə yolu ilə mesaj ötürməkdən ibarət ola bilər.

Elə anları düşünün ki, fikrinizi bildirmək üçün yalnız qaşınızı qaldırmaq və ya gözlərinizi hərəkət etdirmək kifayət edir. Əl sıxmalarımızdan saç düzümümüzə qədər, qeyri-şifahi ünsiyyətimiz kim olduğumuzu göstərir və baş-

qaları ilə münasibətlərimizi formalaşdırır. Bu, sadəcə söhbətlərə məna qatmaq vasitəsi deyil — ünsiyyətimizin əhəmiyyətli bir hissəsi qeyri-şifahidir.

- **KİNESİKA** – *İNSANIN HİSS VƏ DUYĞULARININ XARİCİ TƏZAHÜRLƏRİNİ – MİMİKA, JESTİKA, PANTOMİMİKA ÖYRƏNİR.*
- **TAKESİKA** – *ÜNSİYYƏT ZAMANI OLAN TƏMASLARI – ƏLSIXMALARI, ÖPÜŞMƏNİ, TOXUNMALARI VƏ S ÖYRƏNİR.*
- **PROKSEMİKA** – *ÜNSİYYƏT ZAMANI İNSANLARIN FƏZADA YERLƏŞMƏLƏRİNİ TƏDQİQ EDİR. İNSANLARLA MƏSAFƏ SAXLAMAQ ZONALARINI ÖYRƏNİR.*

## Bədən dili oxuma ilə bağlı bəzi praktik üsullar:

Qarşı tərəfin ünsiyyət zamanı bədən dilini analiz edərək dedikləri ilə bədən dilinin üst-üstə düşüb-düşmədiyini müşahidə edək:

1. Bir müzakirə əsnasında söhbət uzanır, şaxələnir və sonda qarşı tərəf bizə "Haqlısan"- deyir. Ancaq bu ifadədən sonra gözlərini çevirirsə, çox böyük ehtimalla əslində haqlı olduğumuzu düşünmür. Çünki göz çevirmək əsasən bir şeyə inanmadığımızı və ya ironiya ilə yanaşdığımızı göstərən, sarkazm ehtiva edən bir davranışdır.

2. Bir insan üzr istəyərkən göz kontaktından qaçırsa, bu da sözlərlə bədən dili arasında ziddiyyətin olduğunu göstərir. Üzr istəmək ümumən səmimiyyət və məsuliyyət tələb edən bir davranışdır. Ancaq gözlərini qaçırmaq bu səmimiyyətdən və dürüstlükdən xəbər vermir.

3. Qarşımızdakı insan bizi başa düşdüyünü, bizi həqiqətən çox sevdiyini və bizə dəyər verdiyini ifadə edir. Ancaq bunu deyərkən qapalı jestlərdən istifadə edirsə –

məsələn, qollarını önündə çarpazlayıbsa – bu da sözləri ilə bədən dili arasında ziddiyyətin olduğuna işarədir.

4. Qolları çarpazlama həm narahatlıq, həm də sadəcə soyuq hava səbəbilə ola bilər.

5. Əgər sözlərlə jestlər uyğun gəlmirsə (məsələn, "çox şadam"- deyir, amma üz ifadəsi donuqdur), bu ziddiyyət yalanın və ya daxili narahatlığın göstəricisi ola bilər.

6. Davamlı göz kontaktı özünə inamın və səmimiyyətin göstəricisidir. Gözləri qaçırmaq, çox tez-tez qırpmaq və ya baxışdan yayınmaq isə yalan, utanma və ya narahatlıq əlaməti ola bilər.

7. Bir insanın bədəni və ayaqları sizin tərəfə yönəlmişsə, bu onun diqqət və marağının sizdə olduğunu göstərir. Əgər bədəni başqa istiqamətə yönəlibsə, o insan getmək, mövzudan uzaqlaşmaq və ya əlaqəni kəsmək istəyir.

**Jestlər - əl, qol hərəkətlərinin danışarkən və ya danışmadan bir fikir, duyğu bildirmək üçün istifadə edilən qeyri-verbal vasitədir.**



**Mimikalar – üz əzələlərinin mənalı hərəkətidir.**



## *Təcrübi məşğələlər:*

### Gərək hərdən danışım

Mənə diqqətlə yönəlmiş bu nəzərdən danışım,
Yenə dərs vaxtı yazdığım bir əsərdən danışım.

Monoton söhbət olar sənin nitqinin əcəli,
Nitqi aşkar eyləyər varsa cinayətdə əli,
Yəni hər insanın dilində gizlənib əməli,
Ünsiyyət vaxtı çıxan ani xəbərdən danışım.

Yaxşı natiqlik özü İlahinin vergisidir.
Səsdə intonasiya ünsiyyətin sevgisidir.
Məncə jestlər, mimika daxilinin güzgüsüdür,
Sevincli olsam əgər nə cür kədərdən danışım?

Elə söz var ki, müsibət gətirər dövranə,
Söz də var şirin gələr yağ kimi yayılar canə.
Az danışmaq da böyük nemət olar insanə,
Nə qədər çox bilən olsam gərək hərdən danışım.

*Nihad Abbasov*
*dərnəyin üzvü (2024-cü il məzunu)*

**Tapşırıq:**

1. Vəziyyətə uyğun nitq forması seçin. Müxtəlif situasiyalar təqdim olunur və tələbə həmin vəziyyətə uyğun nitq növünü qarşısında yazır: Şifahi gündəlik nitq, akademik nitq, rəsmi yazılı nitq, işgüzar nitq

**Misal:**

- "Dissertasiya şurasında müdafiə etmək" –
- "Məktubla rəsmi müraciət etmək" –
- "Qonşularla söhbət etmək" –
- " Hesabat tərtib etmək" –

2. Hər kəsin çıxış zamanı düzgün duruş jestini müəyyənləşdirmək;
3. Pantomim hərəkətlərlə sözlərin qarşı tərəfə ötürülərək tapılması;
4. Ünsiyyət vasitələrinə aid təqdimatın hazırlanması.

***Təcrübi məşğələ:***

***Nitqin məqsədinə görə növlərinin hər birinin özünəməxsus xüsusiyyətləri vardır:***

1. **Məlumatverici (xəbərverici) nitq**

**Məqsədi:** Dinləyiciyə və ya oxuyana hər hansı bir məlumat çatdırmaqdır.

**Xüsusiyyətləri:**

- Sadə və aydın olur;
- Məlumat yönümlüdür;
- Emosiyadan uzaq, obyektiv nitqdir.

**Nümunə:** Elmi məruzə, xəbər bülletenləri, dərs izahı.

2. **İnandırıcı nitq**

**Məqsədi:** Dinləyicinin fikirlərinə, hisslərinə və ya davranışlarına təsir etməkdir.

**Xüsusiyyətləri:**

- Emosional və inandırıcı olur;
- Çağırışlar və arqumentlərdən istifadə olunur;
- Dinləyicini hərəkətə keçirməyə çalışır.

**Nümunə:** Təbliğat çıxışları, reklam, vətənpərvərlik nitqləri

3. **Çağırışedici (Təşviqedici) nitq**

**Məqsədi:** Dinləyicini müəyyən bir hərəkətə, davranışa və ya qərara təşviq etməkdir.

**Xüsusiyyətləri:**

- Birbaşa müraciət forması olur;
- Sual-cavab və ya əmr cümlələrindən istifadə olunur;
- Hərəkətə çağırış əsas yer tutur.

**Nümunə:** Komanda göstərişləri, rəhbərlik nitqləri və s.

4. **Salamlayıcı nitq**

**Məqsədi:** Dinləyiciləri və ya tamaşaçıları nəzakətlə qarşılayaraq, onlara hörmət və diqqət göstərməkdir.

**Xüsusiyyətləri:**

- Qısa və səmimi olur;
- Tədbirin və ya görüşün əvvəlində söylənir;
- Dinləyicilərlə yaxşı münasibət qurmağa kömək edir.

**İstifadə olunur:** Mərasimlərdə, tədbirlərin başlanğıcında, müəllim və ya rəhbər şəxs çıxış edərkən.

**Nümunə:** "Hörmətli həmkarlar! Sizi bu gözəl tədbirdə salamlayıram. Gəlişiniz bizim üçün böyük sevincdir!"

5. **Ruhlandırıcı nitq**

**Məqsədi:** Dinləyicilərə motivasiya vermək, onları cəsarətləndirmək, ümid və inam aşılamaqdır.

**Xüsusiyyətləri:**

- Emosional və təsirlidir;
- Pozitiv fikirlər və çağırışlarla zəngindir;
- Dinləyicini inandırmaq və ruhlandırmaq üçün deyilir.

**İstifadə olunur:** Yarış və ya imtahandan öncə, vətənpərvərlik çıxışlarında, çətin anda insanlara dəstək olmaq üçün.

**Nümunə:** "Əziz şagirdlər! Bu imtahan nəticələri sizin zəhmətinizin bəhrəsidir. Əzmlə çalışmağınız sizə uğur gətirəcək. Sizə müvəffəqiyyətlər diləyirəm"

6. **Əyləndirici nitq**

**Məqsədi:** Dinləyicini əyləndirmək, maraqlandırmaq, bəzən düşündürməkdir.

**Xüsusiyyətləri:**

- Yumor, zarafat, maraqlı hekayələrdən istifadə olunur;
- Emosional və səmimi üslubda olur.

**Nümunə:** Tamaşalar, zarafatlar, şənlik çıxışları.

## Üçbucaq metodu

3 nəfərdən ibarət kiçik qruplarda istənilən sözə aid 1 və ya 2 dəqiqəlik çıxış edilir. Dairədə bir nəfər danışır, 2 nəfər qulaq asır. Qarşısındakı şəxslər danışanın yaxşı və pis xüsusiyyətlərinə fikir verir və çıxış bitdikdə ona bildirir. Bu zaman əvvəlcə müsbət cəhətlərini sadalayır, ortada yumşaq şəkildə mənfiləri aradan qaldırmağı tövsiyə edir, yenidən yaxşı cəhətləri söyləyir. Bu üçbucaq metodu adlanır. Dostcasına, səmimi olaraq hər bir şəxsin çıxış zamanı mənfi və müsbət cəhətləri aşkar olur və qarşılıqlı əlaqə qurulur. Sonra qrupun digər üzvünə söz verilir. Beləliklə, qrupda əlaqə və əks-əlaqə vasitəsilə özünü inkişaf etdirməyə nail olunur.

***Tapşırıq:***

1. Qarşılıqlı əlaqə və əks-əlaqə vasitəsilə mənfi və müsbətlərimizi üzə çıxartmaq, jest və mimikalardan səmərəli istifadə etmək;
2. Qarşı-qarşıya göz təması yaradaraq danışmaq və göz ilə nüfuz etməyi bacarmaq;
3. Kartlara yazılmış sözləri bədən dili vasitəsilə izah etmək;
4. Aşağıdakı situasiyalara uyğun **qısa bir salamlayıcı** və **ruhlandırıcı nitq** yazın:

- Akademiyada “Həyatın açarı kitabdır” tədbirini açırsınız.
- Dostlarınıza idman yarışına başlamazdan əvvəl motivasiya verirsiniz.

**5. Nitqin məqsədə görə növlərinə aid fərdi çıxış hazırlamaq:**

I qrup: Məlumatverici nitqə uyğun çıxış hazırlamaq;

II qrup: Ruhlandırıcı nitqə uyğun çıxış hazırlamaq;
III qrup: Çağırışedici nitqə uyğun çıxış hazırlamaq;
IV qrup: İnandırıcı nitqə uyğun çıxış hazırlamaq;
V qrup: Məhkəmə nitqinə uyğun çıxış hazırlamaq;

## Testlər:

**1. Aşağıdakı hansı cümlə məlumatverici nitqə aiddir?**
A) Gəl, birlikdə oynamağa gedək!
B) Su 100°C-də qaynamağa başlayır.
C) İrəli, əsgər! Vətənin sənə ehtiyacı var!
D) Ah, gündən-günə gözəlləşən, İşıqlı dünyadan necə əl çəkim?

**2. "Əziz dostlar! Sizi Beynəlxalq Ana Dili Günü münasibətilə təşkil olunmuş dəyirmi masada görməyimizə çox şadıq." – bu hansı nitq növünə aiddir?**
A) Salamlayıcı nitq
B) Əyləndirici nitq
C) Ruhlandırıcı nitq
D) Məlumatverici nitq

**3. Kitabları açın, oxuya başlayırıq - deyə müəllim sinfə müraciət edirsə hansı nitq növünə aiddir?**
A) Əyləndirici
B) Məlumatverici
C) Təşviqedici
D) Təsiredici

**4. Əyləndirici nitqin əsas məqsədi nədir?**
A) Yeni bilik vermək
B) Fikrə təsir etmək
C) Hərəkətə çağırmaq
D) Gülmək və maraq yaratmaq

**5. "Qar çox yağdığı üçün avtomobillər yolda qalmışdır." – bu cümlə hansı nitq növünə aiddir?**
A) İnandırıcı
B) Məlumatverici
C) Çağırışedici
D) Əyləndirici

**6. Hansı cümlə əyləndirici nitqə nümunə ola bilər?**
A) Dərslər saat 8:00-da başlayır.
B) Yaşasın Azərbaycan polisi!
C) Bir gün fil ağaca çıxırmış!
D) Hər bir insan vətənini qorumalıdır.

**7. Salamlayıcı nitqin əsas məqsədi nədir?**
A) Məlumat vermək
B) Ruhlandırmaq
C) Dinləyicini qarşılayıb hörmət göstərmək
D) Təhlükədən xəbərdar etmək

**8. Ruhlandırıcı nitq hansı vəziyyətdə daha çox istifadə olunur?**
A) Yeni dərsin izahında
B) İmtahana hazırlaşanları motivasiya etmək üçün
C) Bayram tədbirini başlamaq üçün
D) Zarafat etmək üçün

**9. Aşağıdakı cümlələrdən hansı ruhlandırıcı nitq nümunəsidir?**
A) "Əziz dostlar, xoş gəlmisiniz!"
B) "Sabah hava yağmurlu və tutqun olacaq."
C) "Siz bütün çətinliklərdən üzü ağ çıxacaqsınız, mən buna əminəm!"
D) "Kitabları açın və məşqə başlayaq."

**10. Salamlayıcı nitqlər adətən çıxışın hansı hissəsində söylənilir?**
A) Ortasında
B) Sonunda
C) Başlanğıcında
D) Heç birində

**11. Əziz kursantlar, siz ağıllı və bacarıqlı gənclərsiniz. İnanıram ki, bu yarışda uğur əldə edəcəksiniz! – bu cümlə hansı nitq növünə aiddir?**
A) İnandırıcı nitq
B) Ruhlandırıcı nitq
C) Salamlayıcı nitq
D) Məlumatverici nitq

**12. Vətənə, torpağa məhəbbət Anaya məhəbbətdir.” – bu hansı nitq növünə aiddir?**
A) Ruhlandırıcı
B) Əyləndirici
C) Çağırışedici
D) Məlumatverici

# IV mövzu:
# Nitq fəaliyyəti. Nitqin obrazlılığı və emosional ifadəliliyi. Çıxışın kompozisiyası.

## Plan:

*1. Nitq fəaliyyəti. Nitq situasiyası.*
*2. Çıxışın nitq tərəfi. Nitqin obrazlılığı və emosional ifadəliliyi.*
*3. Yaranış mərhələsində ritorik fəaliyyət.*
*4. Çıxışın kompozisiyası.*

## Özünü yoxlama sualları:

1. Nitq situasiyası dedikdə nə başa düşürsünüz və bu hansı ünsürlərdən ibarətdir?
2. Nitq fəaliyyəti hansı məqsədlərlə aparılır?
3. Kompozisiya nədir? Çıxışın kompozisiyası neçə hissədən ibarətdir?
4. Kompozisiyanın giriş hissəsinin qarşısında duran vəzifələr hansılardır?
5. Kompozisiyanın əsas hissəsinin qarşısında duran vəzifələr hansılardır?
6. Kompozisiyanın nəticə hissəsinin qarşısında duran vəzifələr hansılardır?
7. Giriş və nəticə hissə nitqimizin neçə faizini təşkil edir?
8. Çıxışın qurulması zamanı hansı qanunauyğunluqlar var?
9. Natiq yaranış mərhələsində ritorik fəaliyyətini neçə mərhələdə aparır və bu mərhələlərdə hansı işlər görülür?
10. Natiq yaranış mərhələsində ritorik fəaliyyəti zamanı hansı problemlərlə üzləşə bilər?

11. Çıxışın mövzusunun və adının seçilməsi zamanı ritorun fəaliyyətində mühüm olan meyarlar.
12. Çıxış üçün material seçilməsinin əsas mənbələri hansılardır?
13. Yaranış zamanı ədəbiyyat qaynaqlarından necə istifadə etmək lazımdır?
14. Natiq nəyi bilməlidir?
15. Natiq şəxsiyyətinin keyfiyyətləri haqqında.
16. Obrazlı və emosional nitq dedikdə nə başa düşürsünüz?
17. Ritorik məcaz nədir?
18. Nitqdə bədii ifadə və təsvir vasitələrdən istifadənin əhəmiyyəti.
19. Nitq zamanı ritorik sualın əhəmiyyəti.
20. Mükəmməl nitq necə olmalıdır?
21. Kütlə qarşısında çıxışın üslub keyfiyyətlərinin seçilməsi zamanı nəyə diqqət etmək lazımdır?
22. Dinləyicilərə nitq təsirinin növləri hansılardır?
23. Nitq təsirinin bilavasitə və bilvasitə taktikalarını izah edin.
24. İclaslarda ekspromt çıxış zərurəti yarandıqda nəyi nəzərə almaq lazımdır?
25. Məhkəmə nitqləri necə planlaşdırılır?
26. Məhkəmə nitqlərində sübut hansı üslublarla həyata keçirilir?
27. Çıxışın mətni necə hazırlanmalıdır?
28. Çıxışa necə məşq etmək və hansı amilləri nəzərə almaq lazımdır?
29. Çıxış günü çıxışdan əvvəl nə etmək lazımdır?
30. Çıxışın kağız üzərində necə yerləşdirilir?
31. Kağızdan oxuya necə hazırlaşmaq lazımdır?
32. Çıxış zamanı suallara necə cavab vermək olar?

33. Nitqinizi yarımçıq kəsən suallar olduqda nə etmək lazımdır?
34. Mürəkkəb və ya mənfi münasibətə köklənmiş auditoriya qarşısında çıxış necə olmalıdır?




***Yaranış mərhələsində ritorik fəaliyyətdə nə etməli?***

- ❖ **Dinləyicini müəyyənləşdirmək;**
- ❖ **Məlumat toplamaq;**
- ❖ **Nitqin məqsədini və ideyasını müəyyənləşdirmək;**
- ❖ **Nitqin mövzusunun adını qurmaq;**
- ❖ **Çıxışın planını tərtib etmək;**
- ❖ **Çıxışın kompozisiyasını yazmaq (giriş, əsas və nəticə hissələri);**
- ❖ **Kağız üzərində normalara uyğun çıxışı yerləşdirmək;**
- ❖ **Yazılı nitqi şifahi nitqə çevirmək;**
- ❖ **Məşq etmək.**







***Təcrübi məşğələlər:***

## Çıxışdan əvvəl nəfəs texnikası

Rahat dayanırıq, gözlərimizi bağlayırıq 1,2,3,4 saymaqla burnumuzla dərin bir nəfəs alırıq, qarın boşluğunu xaricə doğru genişləndiririk. 1,2,3,4 saymaqla fasilə və 1,2,3,4 saymaqla nəfəsi veririk. 1,2,3,4 saymaqla fasilə. Yenidən 4 saymaqla təkrar. Nəfəs alarkən əmin oluruq

ki, mümkün qədər çox havanı içərimizə çəkirik. Dərin bir nəfəs aldıqdan sonra yavaşca ağzımızdan nəfəsi veririk. Bu sırada qarın bölgəmiz içəri doğru çəkilir. Nəfəsi verərkən heç bir şey düşünmürük, rahatlamağa fokuslanırıq. Nəfəs alıb-vermə prosesini bir neçə dəfə təkrarlayırıq. Hər dəfə daha çox rahatlaşır və başqa düşüncələri isə bir kənara qoyuruq. Bu beynimizə daha çox oksigenin getməsinə və sakitləşməyimizə səbəb olacaq. Bu nəfəs texnikasından kütlə qarşısında danışmazdan bir az əvvəl istifadə edə bilərik. Dərin və nəzarətlə nəfəs almaq bədəni rahatladır və parasimpatik sinir sistemini hərəkətə keçirir, ürəkdöyünməsini və nəfəs alıb-vermə sürətini yavaşladır.

**Tapşırıq:**

***1. Nitq bacarığının inkişaf etdirilməsi üçün rollu oyun***

**Təsvir:** Kursantlara aşağıdakı rollar verilir və cütlük şəklində dialoq qurulması tapşırılır.

**Rollar:**

- Rəhbər – işçidən hesabat istəyir.
- Tələbə – müəllimə sual verir.
- Polis əməkdaşı – vətəndaşdan izahat alır.
- Elmi işçi – təqdimat edir.

Bu tapşırıq nitq fəaliyyətinin tətbiqi tərəfini gücləndirir.

2. Müəllimin verdiyi mövzularda yaranış mərhələsini və çıxışın kompozisiyasını həyata keçirərək nitq situasiyası, çıxış texnikasının həyata keçirilməsi.

## Çıxışların genişləndirilməsi yolları:

### Qatar metodu

Çobanyastığı metodunu həyata keçirərkən ləçəklərdə danışdığımız məsələlərdən biri haqqında daha geniş məlumata malik olduqda spontan nitqlərimizi genişləndirmək

məqsədilə qatar metodundan istifadə edərək həmin məlumatlı olduğumuz məsələdən çıxış etməyə davam edirik. Bu zaman çıxışlarımızda susmamaq, verilən suala uyğun danışmaq üçün aşağıdakılara da əməl edə bilərik:

1. Çıxışın zahiri parametrləri;
2. Energetik parametrlər – şövqlə çıxış, enerjili çıxış, emosiyalar;
3. Səsin tonu, tembri;
4. Surət parametrləri;
5. Parazit sözlərdən istifadə etməmək;
6. Susma, pauza və ya fasilənin, nəfəsalmanın düzgünlüyü.

***Energetikada önəmli olanlar***




**Tapşırıqlar:**

1) 3-4 nəfərlik qruplar dairə şəklində dururlar. 1 nəfərə söz verilir. O, 2 dəqiqə danışınca onun çıxışının içindən söz seçilir və ondan sonrakı iştirakçıya verilir. Digər iştirakçılar da bu qayda ilə oyunu davam etdirirlər.

2) Səsin tonunun qızıl ortamını – 14 dərəcəsini şkalada müəyyənləşdirmək;

3) Lövhəyə 3 nəfər çağırıb birdən danışdırmaq;

4) Öz səsimizi müşahidə etmək;

5) Aşağıdakı ifadələrə görə tələbələr “Düzgün” və “Səhv” cavabını seçirlər.

| İfadə | Cavab |
|---|---|
| Nitq fəaliyyəti yalnız şifahi ünsiyyətdən ibarətdir. | |
| Nitq fəaliyyəti zamanı nitq situasiyası olmalıdır. | |
| Akademik nitqdə emosionallıq əsasdır. | |
| İşgüzar ünsiyyətdə rəsmi dil normalarına riayət olunur. | |

## Dərs nümunəsi

***“Dövlət iki halda sarsıla bilər: Günahkar cəzasız qalanda, günahsıza cəza veriləndə”.***

***Heydər Əliyev***

## Mövzu: Heydər Əliyev müstəqil Azərbaycanın banisidir.

**Məqsəd:**

- Heydər Əliyevin həyat yolunu nəzərdən keçirmək, tələbələrdə vətənpərvərlik hisslərini daha da dərinləşdirmək, dahi şəxsiyyətin dilimizə, ədəbiyyatımıza və təhsilimizə göstərdiyi qayğı haqqında, aydın, səlis, rəvan nitqə malik olmasından danışmaq.
- Tarixi faktlar əsasında, Heydər Əliyevin əvəzsiz xidmətlərini sadalamaqla, onun Azərbaycan dövlətinin tarixində misilsiz siyasi xadim və dövlət adamı olduğunu tələbələrlə bir daha birlikdə çıxış şəklində hazırlamaq, onların milli lider şəxsiyyətinə hörmət, onun ideyalarına sə-

daqət ruhunda tərbiyələnməsinə, yeni metodlardan istifadə etməklə tələbələrin fəallığı, sərbəst düşünmək qabiliyyətinin, spontan nitqin inkişafına nail olmaq, çıxışın kompozisiyasının birlikdə qurulmasına nail olmaq.

**Metod:** Əqli hücum, təqdimat, diskussiya aparmaq, kompozisiya qurmaq, esse yazdırmaq.

**Dərsin forması:** qruplarla və kollektiv iş

**Resurs:** Heydər Əliyevin portreti, onun həyat yolunu və fəaliyyətini əks etdirən şəkillər, slaydlar, kitablar.

**Müəllimin şərhindən:**

Ana dilimiz müstəqil Azərbaycanın ən böyük milli sərvətidir. Heydər Əliyev müstəqil dövlətin atributu kimi fəxr etdiyi Azərbaycan dili barəsində həmişə qürur hissi ilə danışıb. O deyirdi: "Hər bir xalq öz dili ilə yaranır, ancaq xalqının dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində olub". Mərhum prezidentimiz Azərbaycanda yaşayan, bu dövlətin, ölkənin nümayəndəsi olan hər bir kəsdən Azərbaycan dilini, onun incəliklərini bilməyi, bu dilin saflığını qorumağı, torpağın sevincini, kədərini bu dillə ifadə etməyi tövsiyə edirdi.

1992-ci ildə latın qrafikasına keçid qərarı qəbul olunsa da bunu həyata keçirmək mümkün olmadı. Nəhayət, Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanı ilə Azərbaycanda latın əlifbasına keçid qətiləşdi. Bu baxımdan Heydər Əliyev bu fərmanı inqilabi fərman adlandırmışdır. Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, latın qrafikasına keçid, Dil və Əlifba Günü bayramlarının təsis olunması, azad mətbuatın inkişafi da məhz bu milli dəyərlərimiz kimi onun qayğı və himayəsinin təzahürüdür.

**Tədqiqatın aparılması:**

Müəllim kursantları mərkəzlərdə yerləşdirir, sonra hər mərkəzə bir mövzu üzərində işləməyi tapşırır. Mövzular bunlardır:

1. Heydər Əliyev tarixi şəxsiyyət kimi.
2. Heydər Əliyev dövründə dövlətin daxili siyasəti.
3. Heydər Əliyev və Azərbaycanda iqtisadi yüksəliş.
4. Heydər Əliyev dövründə Azərbaycan beynəlxalq arenada.
5. Daxili İşlər Nazirliyinin fəaliyyətinin inkişafında Heydər Əliyevin rolu

Müəllim mərkəzləri ədəbiyyatlar və başqa materiallarla təchiz edir, mərkəzlərdə işləmək üçün 15 dəqiqə vaxt ayırır, vaxtın tamamında mərkəzlər bir-bir işlərini təqdim edirlər. Təqdimat qurtardıqdan sonra onların verdikləri cavabların yekunu kimi sütunun II hissəsini birlikdə doldururlar. Tələbələr dəftərlərində həmin qeydləri edirlər.

Müəllim mərkəzlərdə işin yekunu kimi diskussiya aparır və tələbələrə bu suallarla müraciət edir:

1. H.Əliyevin hakimiyyətə gəlişi vətəndaş müharibəsinin qarşısını aldı - bunu daha ətraflı necə izah edərsiniz?
2. Cəbhədə atəşkəsə nail olmağın ölkənin iqtisadi-siyasi həyatı üçün əhəmiyyəti nədir?
3. Əsrin müqaviləsi adı ilə bağlanmış müqaviləni nə üçün belə yüksək qiymətləndirirsiniz?
4. Milli ordu quruculuğu sahəsində hansı addımlar atıldı?
5. Müstəqilliyin qorunması üçün H.Əliyevin hansı xidmətlərini göstərə bilərsiniz?
6. Azərbaycanın gələcək inkişafını necə görürsünüz?
7. Heydər Əliyevin müstəqilliyimizin bərpası dövründə Azərbaycan polisinin fəaliyyətinə təsiri

Müəllim suallara bütün tələbələrin öz münasibətini bildirməsinə çalışır, onların sözünü kəsmədən, sərbəst şəkildə öz fikirlərini bildirmələri üçün şərait yaradır.

Çıxışın kompozisiyasına əməl etməklə dahi şəxsiyyət Heydər Əliyev haqqında kollektiv çıxış hazırlanır.

***Təcrübi məşğələ:***

## Mövzu: Heydər Əliyevin azərbaycançılıq ideologiyası

***Plan:***

1. Heydər Əliyevin fövqəladə idarəçilik və islahatçılıq keyfiyyətləri.

2**.** Heydər Əliyev müstəqil Azərbaycanın banisidir.

3. Heydər Əliyevin gənclər siyasəti.

**Metod:** Konseptual cədvəl, BİBÖ

**Dərsin məqsədi:**

H.Əliyevin həyatı və siyasi fəaliyyəti, dövlətçilik təcrübəsi haqqında danışaraq nitqlərinin inkişaf etdirilməsi.

**Bacarıqlar:** Azərbaycan müstəqilliyinin qorunub saxlanmasında H.Əliyevin xidmətlərini sadalamaqla ədəbi dilin normalarına və obrazlılığa, emosionallığa əməl etməklə çıxış hazırlamaq;

**Resurslar:** fotoşəkillər, kitablar, praktik məşğələ üçün paylama materialları.

**Dərsin gedişi:** Qruplara ayırma: İştirakçılar 1-dən 5-ə kimi saymaqla qruplara bölünürlər.

Mövzu üzrə iş: Qruplara cədvəl nümayiş olunur. Tapşırıq elan edilir:

- hər bir qrup dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyəti haqqında bildiklərini və bilmək istədiklərini cədvəlin müvafiq sütunlarına yazmalıdır:

Təqdimat keçirilir və lövhədə qeydiyyat aparılır. Təqdimat bitdikdən sonra qruplara mövzu ilə bağlı paylama materialı verilir. Hər bir iştirakçı ayrı-ayrılıqda məqaləni oxuyur və qrupla birgə cədvəlin III sütununu işləyir. Yenidən təqdimat keçirilir.

Müəllim iştirakçıların mövzu ilə bağlı bilmək istədikləri sualları ucadan oxuyur. Hər sual üzrə aşağıdakı işlər yerinə yetirilir.

- Məqalədə suala cavabın verilib-verilmədiyini iştirakçılar ucadan söyləyir, sualın cavabı məqalədən aydın deyilsə, izahat verilir, cavab aydınlaşdırıldısa, sualın qarşısında “+”, əks halda isə “-“ işarəsi qoyulur. Açıq qalmış sualların cavablarını axtarmaq üçün iştirakçıların diqqəti məqalədə göstərilmiş mənbəyə yönəldilir.

Dərsin sonunda cədvəl təqdim olunur.

## 2 fevral Gənclər Günü münasibətilə Azərbaycan və müasir gənclik mövzusunda konfransdan bəzi qeydlər

H.Əliyev hakimiyyətə qayıtdığı ilk günlərdən fəaliyyətinin əsas istiqa-mətlərindən biri də gənclərlə iş sahəsində dövlət siyasətinin müəyyənləşdirilməsi, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakının təmin olunması, onların layiqli vətəndaş kimi formalaşmasına hərtərəfli şəraitin yaradılması olmuşdur. Hələ 1993-cü ilin sentyabr ayında Azərbaycan Ali Sovetinin sədr, prezident səlahiyyətlərini icra edən H.Əliyev Ali Sovetin binasında ilk görüşlərindən birini ölkə gəncliyinin bütün təbəqələrini təmsil edən nümayəndələri ilə keçirmiş, onların fikirlərini

dinləmişdir. Bu görüşün nəticəsi olaraq 1994-cü ilin iyul ayında gənclər siyasətini həyata keçirən bir dövlət qurumunun – "Gənclər və İdman Nazirliyinin yaradılması haqqında" Fərman imzalamışdır. Nazirliyin yarandığı ilk günlərdən qarşısına qoyduğu əsas məqsədlərdən biri kimi böyüməkdə olan nəslin Vətənə sədaqət, Azərbaycan xalqının tarixinə, dilinə, mədəniyyətinə, adət-ənənələrinə, dövlət rəmzlərinə hörmət və məhəbbət ruhunda tərbiyə edilməsi olmuşdur.

Ümummilli Liderimiz H.Əliyevin sərəncamı ilə 1996-cı il fevralın 2-də keçirilmiş müstəqil Azərbaycan gənclərinin I Forumunun xüsusi əhəmiyyəti olmuşdur. Bu forumun işində respublika prezidenti başda olmaqla, bütün dövlət orqanlarının rəhbərləri iştirak etmiş, Azərbaycan gəncliyinin bütün təbəqələrini təmsil edən nümayəndələrin irad və təkliflərini dinləmiş, gənclərin problemlərini yaxından öyrənmişlər.

Forum, həmçinin respublikada fəaliyyət göstərən, uşaq və gənclərlə işləyən və onları öz ətrafında birləşdirən 120-dən artıq qeyri-hökumət təşkilatlarının fəaliyyətlərinin gücləndirməsinə böyük təkan vermişdir.

I Forumun 1 illiyi ərəfəsində çoxsaylı gənclərin müraciətini nəzərə alaraq prezident H.Əliyev hər il fevralın 2-ni Gənclər Günü kimi qeyd olunması haqqında sərəncam imzaladı. Ölkəmizin gəncləri tərəfindən qeyd olunan bu gününə böyük nailiyyətlərlə gələn gəncliyimiz ildən-ilə yeni-yeni uğurlar qazanır.

Ulu Öndərimiz H.Əliyevin davamçısı olan İham Əliyevin Milli Olimpiya Komitəsinə prezident seçilməsi gənclərdə böyük ruh yüksəkliyi yaratmış və onlarda gələcəyə inamı daha da yüksəltmişdir. Məhz İ.Əliyevin gənclərə göstərdiyi diqqət və qayğının nəticəsidir ki, son illər ölkəmizin müxtəlif bölgələrində Olimpiya İdman Kompleksləri-

nin tikintisinə xüsusi diqqət yetirilir, idman qurğuları bərpa edilərək gənclərimizin istifadəsinə verilir.

Ölkə əhalisinin yarıdan çoxunu təşkil edən uşaq və gənclərin hərtərəfli inkişafını təmin etmək, onların problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək, həyata keçirilən gənclər siyasətini tənzimləmək məqsədilə hazırlanmış Gənclər siyasətinə aid Qanun Azərbaycan Respublikası Prezidentinin 6 may 2002-ci il tarixli fərmanı ilə qüvvəyə minmişdir.

Qəbul olunmuş qanun və qərarların əsas məqsədi ölkəmizdə fiziki cəhətdən sağlam nəsil yetişdirmək, onların mükəmməl təhsil almasına, elmin əsaslarına dərindən yiyələnməsinə, böyüməkdə olan nəslin elmi-texniki yaradıcılığa həvəsləndirilməsinə, bədii yaradıcılığa, ədəbiyyat və incəsənətə meyil göstərən gənclərin üzə çıxarılmasına, onlar üçün əlverişli yaradıcılıq mühitinin formalaşmasına, hüquq pozuntularının, cinayətkarlığın və narkomaniyanın profilaktikasına, dövlət quruculuğunda, respublikanın ictimai-siyasi həyatında onların fəal iştirakına, bacarıqlı gənclərin üzə çıxarılaraq onlarda idarəçilik vərdişlərinin yaradılmasına yönəldilmişdir.

Bu gün ölkəmizdə gənclərimizin vətənpərvərlik tərbiyəsi sahəsində müəyyən işlər görülür. Bu baxımdan mərhum prezidentimiz Heydər Əliyevin ordu quruculuğu işinə böyük diqqət göstərməsi gənclərimiz arasında vətənpərvərlik hissinin formalaşmasına böyük təsir göstərmişdir.

## HEYDƏR ƏLİYEV HAQQINDA DEYİMLƏR

Heydər Əliyev öz siyasəti ilə Azərbaycanın adını qaldırdı, dünyaya tanıtdırdı.

*Bəxtiyar Vahabzadə, xalq şairi*

Heydər Əliyev, demək olar ki, hər çıxışında ana dili, Azərbaycan dilçiliyi məsələlərinə toxunur. Bunlar göstərir ki, o böyük siyasət dahisi bir an belə bu problemi yaddan çıxarmır.

*Yusif Seyidov, professor*

Xalqımız xoşbəxtdir, onun rəhbəri böyük dövlət xadimi olmaqla yanaşı, həmçinin, hərtərəfli gözəl alimdir.

*Cəmil Quliyev, akademik*

Bu gün heç kəsə sirr deyildir ki, Heydər Əliyev qısa bir zaman kəsiyində Azərbaycan adlı gəmini onu təhdid edən sualtı qayalıqlar arasından məharətlə keçirib, təhlükəsiz limana çatdırmışdır.

*Nizami Xudiyev, professor*

Heydər Əlirza oğlu Azərbaycanın gələcəyinə inandığı kimi, inanıram ki, möhtərəm prezidentimiz xalqımızla əl-ələ verib Azərbaycanımızı necə ki, indiyədək çıxarıb, indən belə də bütün müsibətlərdən çıxaracaqdır. O, siyasət dünyasında, beynəlxalq aləmdə çox qısa bir mərhələdə Azərbaycanın şöhrətini geniş yaydı.

*Zəlimxan Yaqub, xalq şairi*

Heydər Əliyev bütün həyatını, ömrünü dilimiz, dinimiz, torpağımız, bayrağımız uğrunda mübarizəyə həsr edir.

*Mirvarid Dilbazi, xalq şairi*

Heydər Əliyev cənablarının bütün həyat və fəaliyyəti gənclərə dərindən öyrədilməli, gələcəyimizin etibarlı sahiblərini indidən bu istiqamətdə hazırlamalıyıq.

*Əsmət xanım Məhsəti, şairə*

Xalqımızın yüz illərlə mübarizə apardığı, həsrətində olduğu dövlət müstəqilliyimizi Siz əzmlə qoruyub saxlaya bildiniz.

*Hüseyn Abbaszadə, yazıçı*

Heydər Əliyev böyük siyasətin, böyük diplomatiyanın Füzulisidir.

*Fəraməz Maqsudov, akademik*

Siz Azərbaycan xalqının ən yüksək vətənpərvərlik hissinə və milli qüruruna malik olan övladı olmaqla bərabər, onun gələcəyi, müstəqil Azərbaycanın çiçəklənməsi, ana dilimizin saflığı, milli musiqimizin və mədəniyyətimizin inkişaf edib dünya milli musiqi xəzinəsində layiqli yer tutması uğrunda yorulmadan, namusla çalışan şəxsiyyətsiniz.

*Ramiz Quliyev, xalq artisti, professor*

Azərbaycan dili ən şirin, ən rəvan, ən lətafətli və ən musiqili bir dildir. Elə bir dildir ki, hamı onu başa düşə bilər.

*Karlo Kaladze, gürcü şairi*

## Məhkəmə nitqlərinə nümunələr

Məhkəmə nitqi — məhkəmə proseslərində çıxış edən hüquqşünasların (prokuror, vəkil, hakim və bəzən təqsirləndirilən şəxsin özü) ***hüquqi və məntiqi əsaslarla qurulmuş çıxışlarıdır.*** Məqsəd ya təqsirin sübutu, ya da müdafiə və ya ədalətli qərarın verilməsidir.

**Strukturu:**

Tipik məhkəmə nitqi aşağıdakı hissələrdən ibarətdir:

1. **Giriş** — Dinləyiciyə (məhkəməyə) müraciət, mövzunun təqdimatı.
2. **Əsas hissə** — Faktlar, sübutlar, hüquqi arqumentlər.
3. **Nəticə** — Son qənaət, çağırış (məsələn, cəzanın yüngülləşdirilməsi və ya ədalətli qərarın verilməsi).

**Əsas prinsiplər:**

- Hüquqi əsaslandırma vacibdir.
- Sübut və dəlillərə istinad olunmalıdır.
- Nitq ardıcıl, aydın və inandırıcı qurulmalıdır.
- Emosional vurğu bəzən istifadə edilə bilər, amma əsas arqument hüquqa əsaslanmalıdır.

### Məhkəmə nitqinə nümunə: (vəkil nitqi)

Hörmətli cənab hakim və məhkəmə heyəti!

Bu gün burada biz sadəcə bir cinayət hadisəsinə deyil, bir insanın taleyinə qərar veririk. Müvəkkilim — Rəşad Əliyev, ilk dəfə belə bir hadisə ilə qarşı-qarşıyadır. Düzdür, hadisə baş verib, lakin təqdim olunan sübutlar onun niyyətinin qəsdən olmadığını göstərir.

Hadisə yerində çəkilmiş videomaterial və şahid ifadələri sübut edir ki, o, özünü müdafiə edirdi. Onun hərəkəti nəticəsində heç kimə ciddi zərər dəyməmiş, özü də dərhal polisə müraciət etmişdir.

Bundan başqa, o, ailəlidir, üç övladı var və cəmiyyətə yararlı bir vətəndaşdır. Onun barəsində ciddi cəza tədbiri görülməsi, təkcə onu deyil, bütöv bir ailəni məhv edə bilər.

Cənab hakim, hüququn insani tərəfini də nəzərə almağınızı xahiş edirəm. Mən, Azərbaycan Respublikasının qanunlarına əsasən, müvəkkilimə qarşı daha yüngül cəza tədbirinin seçilməsini sizdən rica edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Məhkəmə nitqinə nümunə: (Prokuror çıxışı)**

Hörmətli cənab hakim, məhkəmə heyəti!

Qarşınızda təqdim etdiyimiz cinayət işi — təsadüfi bir hadisə yox, düşünülmüş və qəsdən törədilmiş bir əməlin nəticəsidir. Təqsirləndirilən şəxs — Elnur Quliyev (şərti ad, soyad), 2024-cü ilin 12 noyabr tarixində, saat 22:15 radələrində, qəsdən və əvvəlcədən planlaşdıraraq, tanışı olan Fikrət Məmmədova bıçaqla xəsarət yetirmişdir.

Hadisə yerindən götürülmüş maddi sübutlar — qanlı bıçaq, Elnur Quliyevin paltarı, və hadisə anını əks etdirən müşahidə kamerası görüntüləri bunu açıq-aşkar təsdiqləyir. Eyni zamanda üç şahidin ifadəsi, təqsirləndirilənin hadisə zamanı sərxoş vəziyyətdə olması və əvvəlki münaqişələri onun niyyətinin təqsirsiz olmadığını sübut edir.

Təqsirləndirilən şəxs törətdiyi əməldə səmimi peşmanlıq göstərmir və məsuliyyətdən yayınmağa çalışır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 126-cı maddəsinə əsasən, bu əməlin cəzası — azadlıqdan məhrum etmədir.

Hörmətli məhkəmə! Bu gün burada yalnız bir şəxsin taleyi deyil, bütöv cəmiyyətin hüquqi təhlükəsizliyi məsələsi müzakirə olunur. Əgər bu cür cinayətlər cəzasız qalarsa, bu cəmiyyətə təhlükəli bir siqnal olar. Bu səbəbdən mən, dövlət ittihamçısı kimi, təqsirləndirilən Elnur Quliyevin 6 il müddətinə azadlıqdan məhrum edilməsini məntiqi, hüquqi və ictimai ədalət baxımından zəruri sayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

# V mövzu:
# Kütlə qarşısında nitq. Natiqin xarici görünüşü. Nitq texnikası. Diskussiya mədəniyyəti.

## Plan:

*1.Nitq iştirakçılarının qarşılıqlı təsiri qanunu. Dinləyici qrupunun müəyyənləşdirilməsi və həmsöhbətin tipləri.*

*2.Kütlə qarşısında çıxışın ümumi qaydaları və bu nitqə verilən tələblər.*

*3.Natiq obrazı şəxsiyyətin keyfiyyətlər sistemi kimi. Natiqin xarici görkəmi, davranış tərzləri, duruşu və jestləri.*

*4.Nitq texnikasının mahiyyəti. Nəfəs, səs, pauza, artikulyasiyanın rolu.*

*5.Diskussiya və onun formaları. Əsaslandırma taktikaları.*

## Özünü yoxlama sualları:

1. Kütlə qarşısında nitq zamanı dinləyicilər hansı qruplara bölünür?
2. Nitq iştirakçılarının qarşılıqlı təsiri qanunu.
3. Nitqdə irəli hərəkət və nitqin ünvanladığı şəxsə meyli qanunu.
4. Nitqin emosionallığı qanununda hansı amillər nəzərdə tutulur?
5. Dinləyiciyə hörmət, ünsiyyətdən ləzzət almaq qanunu.
6. Çıxış zamanı davranış tərzi haqqında nə bilirsiniz?
7. Kütlə qarşısında çıxışın ümumi qaydaları hansılardır?
8. Çıxışın təbiiliyini və sərbəstliyini necə qorumaq lazımdır?
9. Kütlə qarşısında nitqə verilən tələblər hansılardır?

10. Toplum önündə natiqin xarici görünüşü necə olmalıdır?
11. Nitq texnikası dedikdə nə başa düşürsünüz?
12. Nitq texnikasının komponentləri hansılardır?
13. Nitq texnikasının mahiyyəti nədən ibarətdir?
14. Natiqin səsi necə olmalıdır?
15. Tembr nədir?
16. Çıxış zamanı nitqin sürəti pozularsa nə baş verər?
17. Monoton nitq nədir?
18. Natiq diksiya üzərində necə işləməlidir?
19. Dərketmənin təmin edilməsində fasilənin rolu.
20. Diskussiya mədəniyyəti dedikdə nə başa düşürsünüz?
21. Diskussiya hansı formalarda aparıla bilər?
22. Debat, disput və polemikanı bir-birindən fərqləndirin.
23. Diskussiyanın məqsədi, vəzifəsi və yekunu haqqında danışın.
24. Diskussiyanın gedişində qarşı tərəfə psixoloji təsir göstərmək.
25. Diskussiyanın strategiyaları.
26. Opponent nədir?
27. Əsaslandırma taktikası dedikdə nə başa düşürsünüz?
28. Sübut və dəlil nədir?
29. Əsaslandırma fəndləri və üsulları hansılardır?

## Kütlə qarşısında təsirli çıxış etməyin yolları

Çıxış edərkən dinləyici önündə qüvvətli hisslərdən biri qorxu hissidir. İnsanlar qorxur ki, yaxşı danışa bilməz, səhv edər və dinləyicilər onun çıxışını bəyənməz. Toplum önündə çıxış etmə qorxusu isə ən çox qarşılaşdığımız bir hissdir. Çünki əgər səhv etsək insanlar bunu dərhal müşahidə edə bilirlər.

İnsan beyni təhlükə siqnalına, risklərə qarşı çox həssasdır. Toplum önündə danışmaq da bir çox insan üçün təhlükə siqnalını aktivləşdirə bilər. Çıxış etmə qorxusunu özümüzdən uzaqlaşdırmaq üçün müxtəlif texnikalar mövcuddur. Bu texnikalar vasitəsilə insan istəsə öz içərisindəki qorxuya hökm edə bilər.

Öncə başa düşməliyik ki, səhnəyə çıxarkən yaşanan həyəcan olduqca təbiidir. Bu hissin varlığına görə əslində sevinmək lazımdır. Səhnə həyəcanı dəfələrlə səhnəyə çıxmış peşəkar natiqlər, aparıcılar, aktyorlar və s. üçün də təbii bir haldır. Biz səhnədə özümüzdən əmin görünmək istəyirik. Kənardan baxanlar “Bu adam nə yaxşı danışır. Onun gözəl məntiqi var. Nə danışdığını yaxşı bilir” deyə düşünsün. Rahat, pozitiv və özümüz haqqında yüksək fikirdə görünməliyik. Dostlarımızla necə bir masa arxasında toplaşırıqsa, onlarla birlikdə necə şən və firavanıqsa, səhnədə də həmin duyğuda olmalıyıq.

Əgər bizi dinləyən insanları öz tərəfimizdə hiss etməsək, onları gözümüzdə hədsiz şəkildə böyüdüb dağlara çatdırsaq, istədiyimiz kimi çıxış etmək bizə xəyal kimi görünəcək. Dediklərimizə yox, insanların bizi bəyənib-bəyənmədiyinə daha çox fokuslanacaq, dediklərimizi unudacağıq.

Çin filosofu Lao-Tszının bu barədə bir sözü var: “Düşüncələrinizə diqqət edin, onlar hərəkətin başlanğıcıdır”. Hərəkət, sadəcə, nəticədir, niyə bu şəkildə ortaya çıxdığını bilmək üçün onu doğuran səbəblərə - düşüncələrə baxmaq lazımdır. Düşüncənin öz-özünü şişirtmək və reallıqdan yayınmaq xüsusiyyəti var. Onu mütləq nəzarət altında saxlamaq lazımdır. Heç vaxt düşüncələrin səni öz əsarəti altına almasına imkan vermə. Onları ram et. Sən düşüncələrinə deyil, qoy düşüncələrin sənə xidmət etsin.

Auditoriya qarşısında özünə inamlı görünmək necə mümkün ola bilər?

**1. Çıxış edəcəyimiz məkanı əvvəlcədən yoxlamaq;**

Səhnəyə qalxıb oradan oturacaqlara baxmaq, oturacaqların arasında gəzişib oturacaq insanların bizi necə görəcəyini yəqin etmək beynimizdə çıxışın “demo” versiyasını yaratmağa yarayır. Tədbirə tez gəlmiş dinləyicilərin bəziləri ilə söhbət etmək də insanı çıxışla bağlı rahatladan faktorlardan biridir. Nə qədər çox insanla həmsöhbət oluruqsa, çıxışdan qabaq həyəcanımız bir o qədər azalmış olur. Beləcə aparıcı bizi auditoriyaya təqdim etdikdə biz özümüzü demək olar ki, yad mühitdə, yad insanların içərisində hiss etmirik.

**2. Çıxışdan qabaq özünə təlqin etmək;**

Bizi təqdim etməmişdən öncə özümüzə deməliyik: “Mən dostlarımın önündə çıxış edirəm. Əla çıxış olacaq! Səbirsizliklə bu günü gözləyirdim! Hər şey çox yaxşı olacaq!” Özümüzü buna inandırmalıyıq ki, başqaları da bizə inansın. Onları nitqimizlə inandıra bilək.

Əgər çıxış edəcəyimiz toplumdan çəkiniriksə, məndən rütbəcə böyük olduğunu düşünüb qorxuruqsa, məruzəmiz və ya hesabatımız uğurlu alınmayacaq. “Onlar da mənim həmkarlarımdır, mənimlə bərabər əməkdaşlıq edirlər, gördüyüm işlər haqqında danışacağam” kimi fikirlərlə özümüzə təlqin etməli və psixoloji olaraq çıxışa hazır olmalıyıq.

**3. Çıxış edərkən dik dayanmaq;**

Kütlə qarşısında çıxış edərkən dik durmaq ünsiyyətimizdə təsirli bir iz buraxmağın təməli hesab olunur. Bu həm dediklərimizin, həm də özümüzün ciddiyyətini qarşı tərəfə ötürür. Dik durmaq insanın özünə güvəndiyini və dediklərinin arxasında durduğunu göstərir və özünə inamı artırır. İzləyicilər özünə inanan bir natiqin dediklərinə

daha çox inanırlar, daha çox təsirli hesab edirlər. Zəif bir səs tonu və əyri bir duruşla ən düzgün arqumentləri gətirsək belə insanlara təsir etmək çox çətin olacaq. Dik duruş həm də liderlikdən xəbər verir. İnsanlar dik duran natiqə daha çox hörmət bəsləməyə meyillidirlər.

**4.Çıxış etmək üçün məşq etmək;**

Toplum önündə çıxış edərkən məşq etmək çox vacibdir. Məlumat toplamaq və təqdimatı hansı formada edəcəyimizi planlaşdırmaq, səs tonumuz, məntiqi vurğulu sözü yerində və düzgün tələffüz etmək, bədən dili məsələləri də məşq zamanı üzə çıxarılmalıdır. Çıxışa nə qədər yaxşı hazırlaşsaq, özümüzə bir o qədər çox güvənərik. Burada əsas məqsədlərdən biri lazımsız stres, narahatlıq səbəblərini ortadan qaldırmaqdır. Güzgü önündə, video çəkiliş etməklə və ya dostlar qarşısında çıxış etməklə səhvlərimizi aradan qaldıra bilər, özümüzə güvənimiz artar.

**Məşq, məşq, məşq... = özgüvən və uğurlu çıxış...**

**5. İnsanlarla tək-tək göz təması qurmaq;**

Toplum önündə durarkən insanlar yalnız bizi görür. Çıxış edən isə çox insana baxarkən həyəcanlana bilər. Bu baxımdan sağdan sola doğru bütün zaldakı insanlara bir-bir baxmaq həyəcanı azaldır. Böyük zallar bir neçə hissədən ibarət olur. Bu zaman hər bölümə sağ aşağı hissədən yuxarıya, ortaya və sol aşağı hissəyə doğru baxırıq. Zalı 3 hissəyə bölüb hər tərəfdə bir tanıdığımız adama baxmaq olduqca faydalı taktikadır.

**6. Pozitiv xəyal qurma texnikası;**

Düşünməliyik ki, sanki çıxış boyu hər şey bizim istədiyimiz kimi olacaq. Gözümüz önündə canlandıraq ki, çıxış edəcəyimiz zala özümüzə böyük bir inamla girir, biz gülümsəyərək səhnəyə çıxır, bizi təntənəli şəkildə təqdim edirlər. Dinləyicilərimizlə göz təması qurur və çıxışımız

boyu heç dayanmadan coşub çağlayırıq. Belə xəyal etməyimiz beynimizi həmin çıxışa hazırlamağımız üçün gözəl taktikadır. Bu özümüzə inamı daha da artırır.

**7. Açıq jestlərdən istifadə etmək;**

Jestlər nitq zamanı dinləyicini ələ almaqda və səmimi ünsiyyət qurmaqda bizə  kömək edir. Dirsəklərimizi bədəndən aralı tutmalı, əllər sərbəst, açıq olmalıdır. Gah sağ tərəfə doğru, gah sol tərəfə doğru əllərimizi açaraq çıxış etməliyik. Çünki kütləni natiq idarə edərkən onun bədəninin, əllərinin sərbəstliyi dinləyiciyə özünə inamlı olduğu fikrini ötürür. Parazit jestlərdən istifadə etmək (saçı tez-tez düzəltmək, burnu silmək), yumruq jestlərdən, mikro jestlərdən (üz qızarır, düymə ilə oynayır, əllərini özünə sıxır) istifadə çıxış zamanı dinləyiciyə sizin çəkindiyinizi, inamsızlığınızı, qorxu hissi olduğunu dinləyiciyə ötürür.

**8.Çıxış edərkən səssizlikdən qorxmamaq;**

Nitqin ortasında bir anlıq səssizlik çökür. Ya deyəcəklərimizi unutduq, ya da hansı mövzuya keçməli olduğumuzu yada salmağa çalışırıq. Bu zaman xırda səssizlik olur, bu bizdə istər-istəməz həyəcan yaradır. Bu zaman sakit olmaq lazımdır. Danışdığınız kimi bir qədər susmağa da haqqımız var. Əslində dinləyici bizim düşünüb danışdığımızı hiss etməlidir. Bu normal bir haldır, bizim düşündüyümüzdən də qısa çəkir. Əgər çıxış zamanı xırda bir unutqanlıq oldu deyə daha çox təşvişə düşürüksə belə olan halda sakitləşib, varsa su içib, əgər yoxdursa bir su xahiş edib mövzunu tamamlamaq mümkündür. Ancaq kağız üzərində aparılan iş və qarşımızda çıxışımızın olması bizi bu sükutdan qurtara bilər.

## Nitqin intonasiyası

Nitqin intonasiyası dedikdə, danışığın səs yüksəkliyində, tonunda, ritmində və vurğusunda baş verən dəyişikliklər nəzərdə tutulur. Başqa sözlə, intonasiya danışıqda səsin müxtəlif səviyyələrdə qalxıb-enməsi və vurğunun fərqli yerlərdə olmasıdır. Bu, nitqin mənasını, duyğusunu və məqsədini anlamaqda çox böyük rol oynayır.

İntonasiyanın ən əsas funksiyası nitqin müxtəlif məqsədlərini və duyğularını ifadə etməkdir. Məsələn, sual cümləsində səs adətən qalxır, xəbər cümləsində isə səs aşağı enir. Bu fərq dinləyici üçün nitqin mahiyyətini anlamaqda əsas göstəricidir. Eyni sözlər fərqli intonasiya ilə tamamilə başqa mənaya sahib ola bilər. Məsələn, “Gəlirsən?” və “Gəlirsən.” sözləri səs tonunun qalxıb-enməsindən asılı olaraq sual və ya bildiriş məzmunu daşıya bilər. Bu baxımdan intonasiya nitqin anlaşıqlığını təmin edən, onun strukturunu və mənasını formalaşdıran vacib vasitədir.

Nitqin intonasiyası, həmçinin danışanın emosional vəziyyətini əks etdirir. İnsanlar danışarkən sevincli, kədərli, qəzəbli, təəccüblü və ya ironik olduqlarını intonasiyalar vasitəsilə dinləyicilərə çatdırırlar. Məsələn, sevinc dolu nitqdə səs adətən yüksək və ritmik olur, kədərli danışıqda isə səs daha alçaq və yavaşdır. Bu emosional zənginlik nitqin məzmununun daha dərin qavranmasına kömək edir.

İntonasiyanın başqa bir önəmli vəzifəsi nitqin strukturunu aydınlaşdırmaqdır. Nitqdə əsas fikirlər, vurğulanmalı məqamlar və əlavə informasiyalar intonasiya ilə seçilir. Bu, dinləyicinin nitqin müxtəlif hissələrini ayırd etməsinə, əsas və yan fikirləri başa düşməsinə şərait yaradır. Məsələn, cümlədə müəyyən sözlərə vurğu qoymaq onların əhəmiyyətini artırır və dinləyicinin diqqətini həmin məzmuna yönəldir.

Nitqin intonasiyası eyni zamanda dinləyicinin diqqətini cəlb etmək və onun marağını artırmaq üçün istifadə olunur. Monoton, intonasiyasız danışıq dinləyicidə maraqsızlıq yarada və nitqin mənasının itirilməsinə səbəb ola bilər. Buna görə də təbii və zəngin intonasiya ilə danışmaq nitq sənətinin əsas göstəricilərindən biridir. Xarici dillərin öyrənilməsində də intonasiyanın rolu böyükdür. Dil öyrənən şəxsin sözləri düzgün tələffüz etməsi kifayət deyil; düzgün intonasiya ilə danışması da vacibdir. İntonasiya nitqin təbii səslənməsinə və doğru mənanın çatdırılmasına imkan yaradır. Belə ki, intonasiyasız danışıq bəzən mənasız və ya anlaşıqsız olur.

Nitqin intonasiyasını inkişaf etdirmək mümkündür. Bunun üçün müxtəlif məşqlərdən istifadə olunur: mətnlərin fərqli duyğularla səsləndirilməsi, sual və bildiriş cümlələrinin tələffüzünün fərqləndirilməsi, şeir və natiqlik nümunələrinin öyrənilməsi və səs tonunun idarə olunması üzərində iş. Bu məşqlər nitqin zənginliyini artırır və nitq mədəniyyətinin yüksəlməsinə xidmət edir.

Nəticə olaraq, nitqin intonasiyası nitq mədəniyyətinin ayrılmaz hissəsidir. O, danışığın mənasını, emosiyasını və strukturunu formalaşdırır, həmçinin dinləyicinin nitqi daha yaxşı qavramasına imkan verir. İntonasiyanın düzgün və yerində istifadəsi insanın danışıq qabiliyyətini inkişaf etdirir və nitqin təsir gücünü artırır. Buna görə də nitqin intonasiyasına xüsusi diqqət yetirmək, onu təkmilləşdirmək hər bir insan üçün vacibdir.

## Səsin parametrləri

Çıxışın daxili və zahiri parametrləri mövcuddur. Natiq bu parametrlərdən düzgün istifadə etməyi bacarmalıdır. Energetika parametri, yəni emosional, şövqlə çıxış etmək, səs tonu, sürət, pauza, entuziazm, bədən dili parametrlərindən

yerində və bacarıqla istifadə etmək lazımdır. Bu zaman parazit sözlərdən (məsələn, şey, zad, belə ki və s.) istifadə edilməməli, nitq axıcı olmalıdır.

***Artikulyasiya – səsin yaranma məxrəcidir. Səsləri tələffüz edərkən danışıq üzvlərindən düzgün istifadə etmək lazımdır.***

***Səsin diapazonu –*** 0–20 şkala arasında dəyişir. 0-10 çox asta daxili və pıçıltı ilə danışıqları əhatə edir.

Əgər yaxın məsafədən ünsiyyət qururuqsa səs tonu 10-12 şkala arasında, əgər kiçik auditoriyada çıxış ediriksə 13-14 şkala arasında, daha böyük auditoriyada kütlə qarşısında çıxış edriksə 16-17 şkala arasında və nəhayət hiss-həyəcanımızı ifadə edərək şad xəbər, şüar səsləndiririksə 19-20 şkala arasında səs diapazonu baş verməlidir.

**Heç vaxt nəfəsi doldurub danışmağa başlama!**




***Tembr*** - səsin "rəng"i, səsin çalarıdır. Tembrə görə tanış adamların səsini aydınlaşdıra bilirik. Məsələn: radioda həzin musiqi səslənir. Biz mahnını hansı müğənni oxuyursa tanıya biliriksə, deməli, həmin müğənninin səsinin tembrinə bələdik. Səsin tembri səsin rəngi deməkdir.

Yəni eyni yüksəkliyə, eyni ucalığa malik olan səslərin bir-birindən fərqləndirilməsidir.

Tembr eyni zamanda müxtəlif məqsədli sözləri öz çalarında dinləyiciyə çatdırmaqda bizə kömək edir. Səsin tembri vasitəsilə sözə əks məna da vermək mümkündür. Məsələn, S.Vurğunun “Vaqif” pyesində Vaqifə xəyanət etdikdən sonra öz hərəkətindən peşman olan Xuraman dərin məyusluq içində həbs olunmuş Vaqifin yanına gəlir. Zindanının pəncərəsi önündə göz yaşları içində Vaqifə müraciət edir:

**Xuraman:** - Vaqif, ey sevgilim, ey tacidarım,

**Vaqif: -** Nə var, nə deyirsən, vəfalı yarım?

Bu səhnədə Vaqifin “vəfalı yarım" sözlərindəki kinayəni duyan Xuraman etdiyi xəyanətin ağırlığını dərk edib özünü qayadan atır.

İfa zamanı səsin alacağı tembri müəyyənlaşdirmək üçün mövzunun ideyası, müəllifin niyyəti, ifaçılıq vəzifəsi müəyyənləşdirilməlidir.

**Nitqin melodikliyi -** danışıq zamanı səs tonunun dəyişməsi, vurğuların düzgün yerləşdirilməsi, pauzaların istifadəsi, intonasiyanın ritmikliyi və nəfəsin düzgün bölüşdürülməsi ilə nitqə ahəngdarlıq, dinamika və canlılıq gətirən xüsusiyyətdir. Bu xüsusiyyət nitqi monotonluqdan xilas edir, dinləyici ilə emosional əlaqə yaradır və fikrin daha aydın çatdırılmasına kömək edir.

## Cümlənin melodiyasının funksiyaları. Psixoloji və məntiqi

Nitq yalnız sözlərin düzülüşündən ibarət deyil; səs tonu, vurğu və intonasiya da onun əsas tərkib hissələrindəndir. Cümlənin melodiyası, yəni onun intonasiyası da-

nışıqda xüsusi rol oynayır. Bu melodiyanın əsas iki funksiyası vardır: psixoloji funksiya və məntiqi funksiya. Hər iki funksiya nitqin emosional və məntiqi tərəflərini ifadə etmək üçün mühüm əhəmiyyət daşıyır.

Psixoloji funksiya, cümlənin melodiyasının danışanın emosional vəziyyətini və daxili münasibətini ifadə etmək imkanını təmin edir. Danışan insan yalnız məlumat vermir, eyni zamanda hisslərini də paylaşır. Məhz bu hisslər intonasiya – yəni səsin yüksəlib-alçalması, ritmi, pauzalar və vurğular vasitəsilə ötürülür.

Cümlənin melodiyasının ikinci mühüm funksiyası məntiqi funksiyadır. Bu funksiya vasitəsilə danışan öz fikirlərinin strukturunu aydınlaşdırır, vurğunu düzgün yerləşdirir və önəmli məqamları ön plana çıxarır. İntonasiya sayəsində cümlədə hansı hissənin əsas, hansının isə köməkçi olduğunu müəyyənləşdirmək mümkün olur. Məntiqi funksiya xüsusilə vurğular vasitəsilə özünü göstərir. Cümlənin hansı sözünə vurğu düşürsə, həmin fikir önə çəkilir və dinləyici onun üzərində dayanmağa sövq olunur.

Cümlənin melodiyası, danışıq nitqində əsas kommunikativ vasitələrdən biridir. O, nitqin daha canlı, aydın, ifadəli və mənalı çatdırılmasına xidmət edir. Psixoloji funksiya danışanın hiss və emosiyalarını ifadə etməyə imkan verir, məntiqi funksiya isə fikrin strukturlaşdırılmasına və vurğunun düzgün qurulmasına xidmət edir. Bu iki funksiya bir-biri ilə sıx əlaqədədir və birgə işlədikdə nitqi daha təsirli və anlaşıqlı edir. Buna görə də səlis və ifadəli danışıq bacarığı üçün intonasiyanın düzgün və şüurlu şəkildə istifadəsi vacibdir.

Nitq insanın öz fikirlərini, hisslərini və ideyalarını ifadə etməsinin əsas yollarından biridir. Nitq təkcə sözlərdən

ibarət deyil, eyni zamanda ton, intonasiya, vurğu və emosiyalarla zənginləşir. Lakin bəzən bu zənginlikdən məhrum danışıq forması ilə rastlaşırıq ki, buna monoton nitq deyilir.

**Monoton nitq** — səsin daim eyni ton və ritmlə səsləndiyi, vurğuların və emosiyaların çatdırılmadığı danışıq tərzidir. Belə danışıq insanın dediklərini nəinki maraqsız və cansıxıcı edir, hətta bəzi hallarda dinləyicinin diqqətini yayındırır və ya ümumiyyətlə itirir. Bu cür danışıqda danışanın səsi nə yüksəlir, nə alçalır; emosional çalarlar demək olar ki, tamamilə yox olur. Bu danışanın səsinin tonunun, sürətinin və vurğularının dəyişmədən, eyni tonda və eyni ritmdə davam etməsidir. Bu zaman eyni səs tonu ilə danışılır, həyəcan, sevinc, qəzəb və s. kimi emosiyalar dinləyiciyə çatdırılmır, ritmik və vurğusuz danışılır. Bu xüsusiyyətlər dinləyicidə yorğunluq və maraqsızlıq yaradır.

Monoton nitq gündəlik ünsiyyətə, peşəkar çıxışlara və şəxsi münasibətlərə mənfi təsir göstərə bilər. Lakin bu problem üzərində işləməklə onu aradan qaldırmaq mümkündür. Emosiyaları ifadə edən, dinləyicini cəlb edən və canlı nitq həm fikirlərin daha yaxşı çatdırılmasına, həm də qarşı tərəflə daha səmərəli ünsiyyət qurmağa imkan yaradır. Unutmayaq ki, nitq yalnız nə dediyimizlə deyil, necə dediyimizlə də qiymətləndirilir.

## *Təcrübi məşğələlər:*

### Diksiya

- Nitqin təsiretmə, idarəetmə, yönləndirmə xüsusiyyətləri var;
- Nəfəs, səs düzgün olmalıdır;
- Rabitəli, axıcı, dolğun, səlis;

- Fikri, ideyanı çatdıra bilmək;
- Parazitlərdən uzaqlaşmaq

Nəfəs – səs – söz – cümlə - nitq = Uğur

**Parazitlər nə vaxt işlədilir:**

- Tərəddüd edəndə;
- Fikirləşəndə (qısa pauza); susmaq;
- Söz ehtiyatı azlığı;
- Həyəcan;
- Vərdiş.

***Monoton nitq üzərində iş:***

1. İntonasiya üzərində işləmək – səsin yüksəlib-alçalmasına diqqət yetirmək;
2. Vacib sözləri vurğulamaqla fikrinizi daha aydın çatdırmaq;
3. Pauzalardan istifadə etmək – nitqə nəfəs və düşüncə fasilələri əlavə etmək;
4. Güzgü qarşısında məşq etmək – mimika və bədən dili ilə nitqi müşayiət etmək;
5. Yüksək səslə kitab oxumaq – səslənməyə diqqət yetirmək, müxtəlif səs tonları ilə oxumaq.

## Nitq texnikaları

"Nitq texnikaları" anlayışına 2 qrup komponentlər daxildir:

I qrup komponentlərə natiqin özünü idarə etməsi aiddir. Yəni mimika, pantomimika, hisslərini, əhval-ruhiyyəsini idarə edə bilmək, psixi gərginliyi götürmək, yaradıcılıq əhval-ruhiyyəsi yaratmaq, sosial-psixoloji qabiliyyətlərə (diqqət, müşahidə, mühakimə, təxəyyül) əməl etmək, nitq texnikasına (nəfəsalma, diksiya, surəti, fasilə və s) düzgün riayət etməkdir.

II qrup komponentlərə şəxsiyyətə və kollektivə təsir göstərmək bacarıqları aiddir. Yəni natiqin təşkilatçılıq, konstruktiv, kommunikativ və s. bacarıqları, texnoloji fəndlər (məsələn: tələb vermək, ünsiyyəti idarəetmə, kollektiv yaradıcılıq işlərinin təşkili və s.) nəzərdə tutulur. Beləliklə, nitq texnikası natiqin elə kompleks bacarıqlar sistemidir ki, natiqdən daim yaradıcı işləməyi, kollektivlə işləyərkən mövcud şəraitə, vəziyyətə uyğun daha faydalı – effektiv təsir vasitələrini tapmağı tələb edir.

## Güzgü texnikası

Qarşı tərəflə söhbət edərkən "güzgü" ünsiyyət metodu olaraq istifadə edilən bir növ texnikadır. Bu texnika öz içərisində nəyi ehtiva edir? 2 insanın qarşılıqlı əlaqə zamanı bir-birini başa düşməsini, bir-biri ilə empatiya qurmasını təmin etmək üçün bir növ güzgü kimi rəftar etməsini tələb edirik. Bu texnikanın təməl prinsipi qarşı tərəfin dediklərini, davranışlarını təkrar etməkdir. Bu şəkildə biz qarşı tərəfin öz hiss və düşüncələrini daha yaxşı başa düşməsinə kömək etmiş oluruq.

Güzgü texnikası qeyri-səmimi olmamalıdır və həqiqətən dəyər verdiyimiz insanlar üzərində bu metoddan istifadə etməliyik.

## Güzgü qarşısında məşq etməyin əhəmiyyəti

Güzgü qarşısında çıxış edərək həyəcanı dəf etmək olur, amma özümüzdə qüsurları görərək daha çox inkişaf etmək olur. D.Karnegi güzgü qarşısında insanları 3 qrupa bölür:

- biabırçı danışan;
- yaraşıqlı;
- obyektiv.

***Birinci qrup insanlar*** etdiyi çıxışa çox pis yanaşır, yalnız pislikləri görür və qorxusu artır. Biabırçı düşüncələri ata bilmir.

***İkinci qrupda insanlar*** yaraşıqlarına (vizual görüntü) fikir verir, çıxış yaddan çıxır.

***Üçüncü qrup insanlar*** hər şeyə obyektiv yanaşaraq səhvlərini görür və aradan qaldırmağa çalışır.

Çıxış etmək bacarıqlarını inkişaf etdirmək üçün videoya baxıb danışmaq və sonra pozmaq lazımdır. Bu metod daha çox inkişaf etdirir. Danışarkən gördüyün səhvlər, manevrlər kifayətdir. Sonradan videoya baxanda güzgü metodundakı amillər üzə çıxır.

### *Təcrübi məşğələ:*

## Nitq fasiləsi

Nitq fasiləsi — insanın danışıq zamanı səsini qəsdən və ya təsadüfi olaraq dayandırması, yəni nitqin qısa müddətlik ara verilməsi deməkdir. Bu fasilələr danışıq prose-

sinin təbii və zəruri elementlərindəndir və nitqin mənasını anlamağa, fikrin düzgün ötürülməsinə böyük təsir göstərir. Nitq fasilələri olmadan danışıq çox sürətli, qarışıq və anlaşılmaz ola bilər. Bu səbəbdən fasilələr nitqin ritmini, axıcılığını və ifadəliliyini təmin edən vacib vasitə kimi qiymətləndirilir.

Nitq fasilələri əsasən iki növə bölünür: planlaşdırılmış və qeyri-planlaşdırılmış fasilələr.

Planlaşdırılmış fasilələr nitqdə məqsədli olaraq qoyulan dayanmalar, yəni pauzalardır. Bu fasilələr danışığın müxtəlif hissələrini bir-birindən ayırmaq, məzmunun daha aydın və anlaşıqlı olmasını təmin etmək üçün istifadə olunur. Məsələn, cümlələr arasında, fikirlərin ardıcıllığını göstərmək üçün qısa fasilələr verilir. Bu zaman danışan, həmçinin fikirlərini təşkil etmək, növbəti söz və ya ifadəni seçmək üçün vaxt qazanır.

Planlaşdırılmış fasilələr nitqin strukturunu və ritmini müəyyən edir. Onlar vasitəsilə dinləyicinin diqqəti əsas fikirlərə yönəldilir, vurğular daha effektli olur. Yazılı nitqdə nöqtə, vergül kimi işarələrə uyğun gələn bu fasilələr danışığın məzmununu aydınlaşdırır və dinləyiciyə söhbətin hissələrini daha rahat ayırd etməyə imkan verir. Bundan əlavə, planlaşdırılmış fasilələr danışığın emosional ifadəsini də zənginləşdirir. Məsələn, dramatik çıxışlarda və ya natiqlik sənətində fasilələr vurğulamaq istənilən söz və fikrin təsir gücünü artırır, dinləyicidə həyəcan və maraq yaradır.

Qeyri-planlaşdırılmış fasilələr isə danışıq zamanı gözlənilmədən yaranan, əsasən danışanın söz tapmaqda çətinlik çəkdiyi, fikrini düzgün ifadə edə bilmədiyi anlarda meydana çıxan dayanmalar, susqunluqlardır. Bu fasilələr əsəbilik, yorğunluq, təcrübəsizlik, ya da diqqətin dağılması nəticəsində ortaya çıxa bilər. Belə fasilələr nitqin axıcılığını pozur, danışığın anlaşıqlığını azaldır və bəzən din-

ləyicidə narahatlıq, hətta gülüş doğura bilər. Qeyri-planlaşdırılmış fasilələr zamanı danışan tez-tez “eee”, “hmm”, “yəni” kimi lazımsız sözlərdən istifadə edir ki, bu da nitqin keyfiyyətinə mənfi təsir göstərir. Nitqdə bu cür fasilələrin çoxluğu danışanın inamını azaldır, onun peşəkarlıq səviyyəsinin aşağı olduğunu göstərir. Ona görə də nitq təlimlərində qeyri-planlaşdırılmış fasilələri azaltmaq, nitqin daha axıcı və inandırıcı olmasını təmin etmək əsas məqsədlərdən biridir.

Nitqdə fasilələrin düzgün idarə edilməsi nitq mədəniyyətinin mühüm göstəricisidir. Yaxşı natiq fasilələri məqsədəuyğun və düzgün yerlərdə istifadə edir, onların uzunluğunu və sayını nəzarətdə saxlayır. Planlaşdırılmış fasilələr nitqin təsir gücünü artırır, qeyri-planlaşdırılmış fasilələr isə minimum səviyyədə olmalıdır.

Nitq təlimlərində danışıqda fasilələrin idarə olunması xüsusi yer tutur. Bu məqsədlə müxtəlif məşqlər aparılır, məsələn, mətnlərin diqqətlə oxunması, uzun fikirlərin bölünərək ifadə olunması, çıxışlarda fasilələrin vaxtını və uzunluğunu düzgün tənzimləmək öyrədilir. Bundan əlavə, nitqdə “eee”, “hmm” kimi lazımsız sözlərdən qaçmaq üçün texnikalar tətbiq edilir.

Nitqdə fasilələrin idarə olunması həm də nitq ifaçısının özünü idarə etmə bacarığını göstərir. Bu bacarıq, xüsusilə ictimai çıxışlarda, natiqlikdə, televiziya və radio yayımında çox vacibdir.

## Vurğu, intonasiya, fasilə

Vurğu – heca, məntiqi, həyəcanlı;

Heca vurğusu – dialo`q, expe`rt, enerji`, arqume`nt, monolo`q, mağaza`,  helikopte`r, relye`f, rentge`n, katalo`q, kimya`, epilo`q, kassi`r, monastr`

Məntiqi vurğu –
1. Mən sabah konfransda iştirak edəcəm.
2. Mən konfransda sabah iştirak edəcəm.
3. Sabah konfransda mən iştirak edəcəm.

**İntonasiya** – nitqin ahəngi
Təəssüf, hirs, sevinc, kədər, rişxənd, ironiya
**Nümunə:** (tələffüz)
Buradakı – burda
Orada – orda
Da, də, daha ədatları – vurğu
Məntiqi vurğu xəbərdən əvvəl
Mənimlə [mənimnən]

**Fasilə**
1. Durğu işarələri;
2. Yeni fikrə keçəndə;
3. Vurğulamaq, qabartmaq;
4. Vəziyyət və şəraitə görə;
5. Və bağlayıcısından əvvəl;
6. Kimdənsə sitat gətirəndə
   " - əvvəl, sonra
7. Xitablardan sonra;
Bağlayıcı, ədat, qoşmadan sonra.

**Fasilələr (pauza) dərketmənin təmin olunmasında əsas göstərici faktordur.**

**Zərərlidir -** qışqırmaq, isti/soyuq su, öskürmək, dondurma (laktoza), süd (inək), çiy yumurta, rütubət, yuxusuzluq, spirtli içkilər (konyakdan başqa), qazlı su, kofe (paket), acı bibər, kəskin ədviyyatlar, ketçup, qoz, fındıq, kəskin turş/şirin.

**Faydalıdır -** yaşıl alma, qoyun əti, makaron, spagetti, zəncəfil, bəkməz, kəklikotulu çay.

## Əsərlərin ifadəli oxusu zamanı şərti işarələrdən istifadə nümunəsi

| Fasilələrin müəyyənləşdi-rilməsi | İfaçılıq vəsifəsinin müəyyənləşdiril məsi | Səsin tonu, tembri, oxuda intonasiyanın aldığı çalar |
|---|---|---|
| İnsan dənizi / sükut içində gözləyirdi.// Varaz sözə başladı.// Onun səsində/ qəribə bir titrəyiş vardı.// Hamı/ cəbhələr yarmış bu qocaman sərkərdənin səsi-ni eşidəndə /fəlakətin böyük olduğunu anladı.// | Gözlənilən fəla-kətin insanlarda doğurduğu həyə-canın çatdırıl-ması | Aramla, həyə-canla |
| Varaz dedi: - Əziz övlad-larım!// Bu qocanın sözləri-nə diqqətlə qulaq asın! // Müqəddəs Girdman ölkəsi / bizdən kömək istəyir. Odur ki, / yenə üstümüzə düş-mən gəlir. O, çox insafsız düşməndir, / çapıb-talayır,/ vurub-yıxır,/ insaf deyəndə - qılınc çəkir,/ namus deyən-də - od yağdırır.//Bilin ki, /üs-tümüzə ölüm gəlir.// Mən də sizə son borcumu verməyə gəldim. //Otuz ildə həmişə ölüm bizdən uzaq olubdur.//Girdman adı gə-lən-də/ hamı hörmətlə baş əyibdir. //Amma indi mən qocalmışam. // Bu gün sə-hər/ ox süzdürüb qılınc çal-maq istədim, /əllərim titrə-di.// - Sərkərdəniz kim olacaq? // Göstərin. // | Varazın Vətənin taleyi üçün nara-hatlığı, düşmənin amansız-lığı, qəddarlığı barə-də təsəvvür ya-radılması | Həyəcanla, qə-tiyyətlə |

***Tapşırıq:*** Oxuyun, fasilə və məntiqi vurğulu sözlərə əməl edin:

| **Fasilələrin yeri, məntiqi vurğulu sözlər** | **İfaçılıq vəzifəsi, oxunun sürəti, intonasiya** |
|---|---|
| Ana ürəyi həyəcan içində idi. // Ömrünün nübarı, bəxtinin çiçəyi, / evinin dirəyi/ igid oğlu Buğac ilk dəfə atası ilə ova çıxmışdı. // Anaxatun yaxşı bilirdi ki, / Buğac ovda yenə ad çıxaracaq, / dostlarını sevindirəcək. // Ovdan gələnləri yaxşı qarşılamaq lazımdır. // Anaxatun da qırx qızla hər tədarükü görmüşdü..// | İlk dəfə atası ilə ova çıxmış oğlunun gəlişini gözləyən ananın həyəcanını çatdırmaq, hadisələrin davamına maraq oyatmaq. Orta temp. Nağılvari. Həyəcanla. |
| Axşam yaxınlaşdıqca ananın səbri tükənir,/ürəyi nigarançılıqla döyünürdü.// Axırda o,/ dözə bilmədi. // Qırx qızla birgə atlanıb / ovçuları qarşılamaq üçün obadan aralandı. // Bir az sonra /uzaqdan dəstə göründü. // Amma nədənsə, / nə ov şeypurları çalınır, / nə də ovçuların şən çığırtıları eşidilirdi. // Ana urəyindən sanki bir tel qırıldı,/ bu tel qəmli-qəmli səsləndi:/ - Bəlkə, bir bədbəxtlik baş verib? // | Oğlunun başına bir iş gələcəyini hiss edən ananın nigarançılığının artması, səbrinin tükənməsi, kədəri barədə təsəvvür yaratmaq. Nağılvari. Orta temp. Həyəcanla. |

| | |
|---|---|
| Ana atını sürüb/ xanla üz-üzə gəldi. //<br>Sağına, / soluna baxdı. // Oğlu Buğacı<br>görmədi. // Ana nigarançılıqla dilə gəldi: /<br>- Bəs mənim balam hanı?//<br>Xan dinmədi.// Rəngi ağappaq idi. //<br>Xanın susması ananın nigarançılığını daha<br>da artırdı. // Ana ürəyinin bütün telləri sanki<br>birdən qırıldı. // O, / coşğun bir səslə çığırdı:/<br>-Bağrım çatladı, xan, söyləsənə, / hanı<br>mənim balam? // | Artıq oğlunun başına bir<br>hadisə gəldiyinə əmin olan<br>ananın fəryadı, ürəyindən<br>qara qanlar axması barədə<br>təsəvvür yaratmaq.<br>Tempi sürətləndirməklə.<br>Hərarətlə.<br>Qətiyyətlə. |
| Xan/ yenə dinmədi. // O,/ dodaqlarını,/ bığlarını gəmirirdi. // İşi belə görən<br>yasavulbaşı ananı da aldatmaq istədi, / irəli<br>gəlib, / ona baş əydi və dedi: /<br>- Anaxatun, / heç nigaran qalma. /<br>Oğlun Buğac sağ-salamatdır, / xan yoruldu,/<br>qayıtdı. // Buğac cavandır. // Ovdan doymadı.// Dağlarda, / düzlərdə cüyür-ceyran qovur, /<br>ov ovlayır. // | Yasovulbaşının ananı<br>aldatmaq, arxayın salmaq<br>niyyətinin çatdırılması<br>Nağılvari.<br>Orta temp. |
| Ana ürəyi/ onun yalan dediyini duydu.//<br>Anaxatun atını mahmızlayıb, / qırx qızla<br>birgə çölə, otlağa sarı üz qoydu. | Oğlunu tapmaq qərarına<br>Gələn ananın qətiyyəti barədə<br>təsəvvür yaradılması.<br>Orta temp. |

| | |
|---|---|
| // Anaxatun<br>yaz-qış başı qarlı olan/ Aladağa<br>çatdı. // Bir<br>təpəyə çıxdı. // Boylanıb ətrafa<br>göz gəzdirdi.//<br>Ana bir dərənin üzərində<br>qarğaların, /<br>quzğunların halay vurub<br>hərləndiyini gördü//<br>və atını düz/ ora sürdü. //<br>Çatanda nə gördü?//<br>İgid oğlu Buğac / üzüqoylu /<br>bir bulağın<br>kənarında /yıxılıb qalmışdı. //<br>Vəfalı atı isə /<br>başının üstünü alıb, / Buğacı<br>yırtıcı quşlardan,/ heyvanlardan<br>qoruyurdu. // | Nağılvari. |
| Ana oğlunu belə görəndə /<br>sinəsindən<br>odlu bir fəryad qopdu: //<br>- Gözüm çıxaydı, / oğul, /səni<br>belə<br>görməyəydim. // Axar suların<br>qurusun,/ Aladağ, / göz<br>yaşlarım qurudu. // Otların, /<br>çiçəklərin / yanıb külə dönsün, /<br>Aladağ, /<br>bircə balama necə qıydın?// | Oğlunun yaralandığını<br>görən<br>ananın keçirdiyi hislərin<br>çatdırılması<br>Həyəcanla<br>Orta temp |

## Çıxış zamanı

1. diafraqmanı nəzarətdə saxlamaq;
2. dik duruş, özünəinam;
3. havanı diafraqmaya doldurub başlama;
4. mövzuya aid danışmaq;
5. əşyalara toxunmaq, tanımaq, özününkiləşdirmək;

6. çıxış zamanı başlayarkən auditoriyadan sənə xoş təsir bağışlayan və ya tanıdığın bir nəfərə bax, ona baxaraq başla, vaxt keçdikcə artıq heç kim nəzərə çarpmayacaq;
7. yaxşı dinləyici;
8. hazırlıqlı nitq;
9. ayaqların biri öndə.

***Məşq:*** 2 dəqiqə arxası dinləyiciyə sonra üzü dinləyiciyə hər hansı söz haqqında danışmaq.

## Nitq üzrə aparılan praktik çalışmalar

**Dərs 1**
**Məşq 1. Səs**
Səs – şəxsiyyət
Səs – orqanların birgə fəaliyyəti
Səs telləri: kişilərdə 2-2,5 mm, qadınlarda 1-1.5 mm olur.

A məşqi Aaaa.... orta öz tanım
Aaaa.... yuxarı ton qırmadan qalınlaşdır
Aaaa... aşağı
3-4 dəfə 1 diafraqma nəfəsi

**Məşq 2**
(m) səsi – qulağı tutmaq, öz səsini eşitmək
mmmm.... 3-4-6 dəfə təkrarlamaq (qırılır)
aşağı-orta-yuxarı titrəmə artır.
Boğazda xırıltı yarananda səsi 1 pərdə yuxarı qaldır.

**Məşq 3**
Borucuq – bədən (əzələ) gərgin olmalıdır: səslə üfür – səsin sabitliyi və tembrinə kömək edir (2-8-10 dəqiqə).
Danışarkən informasiya verilirsə, 1 dəqiqə ərzində 100 (min.) -130 (mak.) söz istifadə edilməlidir. Məkan və mövzuya görə azalıb artır. Öz sürətinlə mətn oxu. 1 dəqiqə ərzində neçə söz işlətdin?

**Dərs 2**
**Orfoepiya normaları**
c – j (c ilə bitən sözdən sonra l d z s samitləri gəlsə)
ç – ş (ç ilə bitən sözdən sonra l d z s t n gəlsə)
ft, xt, st, şt samit gəlsə t atılır

-dır; -dir; -dur; -dür – “r” tələffüz olunmur.
- sınız$^4$ – [-sız$^4$]
-lı$^4$ - [-rı$^4$]; [-dı$^4$]
- la$^2$; ilə - [-nan; nən]

Ortada h olan sözlərdə səs düşmür. Ov; ev hərf birləşməsində olan sözlərdə [-v] yerində qalmalıdır.

K - [x’]

**Dərs 3**

**Düşüncə - təlqin** <u>Həyəcanı idarə etmək</u>

1. Bütün düşüncə və tərəddüdlərdən xilas olmaq;
2. Mən təlim almışam artıq gözəl danışıram.
3. Məqsəd və hədəf

**Dərs 4**

Artikulyasiya – tənəffüs
Bizim dildə alt çənə və alt dodağa yük düşür
Dodaq, dil, çənə - ağız tənbəlliyi – a, i, o
Dil tənbəlliyi – c, ç, s, ş, z, d, t, l, r, n. y, g, k….

**Dil məşqləri**

1. Dilin isinmə hərəkəti: dili çeynəmək 15-20 saniyə: arxa dişlərdə kənarlarını
2. Dili sərt formada dişlərin qabağı dodağın arxasında saat əqrəbi və əksi şəklində hərəkət etdirmək
3. Dilin kökünə təzyiq – aşağı, yuxarı, sağa, sola – dili çıxardaraq
4. [-dır] [-tır] səsləri

Tırrrrrrr
Dırrrrrrr

5. Yanıltmaclar – bütün səsləri eşidərək yazıldığı kimi oxu.

6. [-r] səsini deyə bilməmək:
- Dil bağı qısa
- Vərdiş

[-r] səsi üçün məşq:
Dilin ucunu qabaq dişlərin arxasına qoy – dddddd,
Əlin baş barmağını dilin bağına vur – rrrrrr

**Dodaq məşqləri:**

Dodaq tənbəlliyi: b, m, f, o, ö, u, ü, p, v;

1. İsinmə hərəkəti – üst dodağa masaj;
2. Dodaq mak. öndə [-u] səsi deyən kimi yuxarı, sağ, sol;
3. Saxta gülüş – dodaqları kənara dart, yanaq ağrıyana kimi;
4. Mı, mi, mu, mü – fe, ve, be, pe – o, ö, u, ü – u, iks, u, iks

Dodağa təzyiqi artıraraq

**Çənə məşqləri**

Çənə tənbəlliyi - dişlərin sıxılması
Vərdiş / nevroz

1. Çənə sümüyünün kəlləyə bitişdiyi yerə masaj
2. Tak, tak... qəfil aç əlləri birləşdir masanın üstündə çənənin altına qoy
3. A. A. Mak. açaraq
4. Barmağı qatlayıb ağıza qoy (20 san açıq çənə üsulu).
5. Maneə məşqi – balaca barmaq qalınlığında taxtanı ağıza qoy, mətn oxu (5-7-10 dəqiqə).

**Dərs 5**

## Səhnəyə çıxmazdan əvvəl

**Məşqlər:**

1. Diafraqma nəfəsini burunun bir tərəfindən alıb digərindən vermək

2. Burundan nəfəsi yavaş-yavaş al, eyni formada qaytar (4 saniyə)
3. Burundan al, ağızdan ver
   2,3,4 saniyə
   2,4,8 saniyə
4. əsnəmək 3-4 dəfə ciyərə bol oksigen getsin
5. əyilərək bol oksigen götürmək.

**Tənəffüs çalışmaları:**

Nitq texnikası vərdişlərinin tərbiyəsinə tənəffüs qaydalarının öyrədilməsi üzrə işlə başlamaq lazımdır.

Aşağıdakı dörd çalışmanın icrasına ciddi nəzarət edilməlidir.

**Çalışma 1.**

Şax dayanın, gərilməyin. Çiyinlərinizdə və boynunuzda gərginliyin olmamasına çalışın.

Diafraqmanın hərəkətinə nəzarət etmək üçün bir əlinizi qarın divarının yuxarı hissəsinə, o biri əlinizi isə qabırğanızın hərəkətinə nəzarət etmək üçün belinizdən yuxarıya qoyun.

Nəfəsinizi yüngülcə verin, nəfəsalmanı müəyyən müddət (nəfəsalma arzusu dayanana kimi) ləngidin.

Yalnız burnunuzla xəfif, nəzərə çarpmayan nəfəs alın (5 saniyə).

Tədricən nəfəs verməyə hazırlaşmaq üçün havanı ciyərlərinizdə saxlayın (2-3 saniyə)

Ağzınızı “a” səsinin tələffüzündə aldığı vəziyyətdə saxlayın, qənaətlə, rəvan, yalnız diafraqmanın hərəkəti ilə nəfəsinizi verin (4-5 saniyə); ciyərlərinizdə hava ehtiyatı yaratmaq üçün qabırğalarınızın hərəkətini müəyyən müddət ləngidin.

## Çalışma 2.

Nəfəs alın (3 saniyə), havanı ciyərlərinizdə saxlayın (1-3 saniyə müddətində).

Nəfəs verin və bu prosesdə tələsmədən beşə qədər ucadan, aydın tələffüz etməklə sayın.

Əlavə hava qəbul edin (1 saniyə), bu prosesdə qabırğalarınızı və çiyinlərinizi hərəkət etdirməyin.

Qabırğalarınızı hərəkətə gətirmədən, ucadan ona qədər sayın.

Əlavə hava qəbul edin (1 saniyə).

Ucadan, aramla on beşə qədər sayın.

## Çalışma 3.

Nəfəs alın (3 saniyə)

Ucadan sayın (1,2,3,4,5).

Əlavə hava qəbul edin (1 saniyə).

Ucadan sayın (1,2,3,4,5,6).

Əlavə hava qəbul edin (1 saniyə).

Ucadan sayın (1,2,3,4,5,6,7).

(15 sayına qədər davam etdirin, bu prosesdə qabırğalar və çiyinlər hərəkətsiz olmalıdır).

## Çalışma 4.

Göstərilən yerlərdə nəfəs almaqla atalar sözlərini oxuyun.

(Nəfəs alın) Tək əldən (əlavə nəfəs alın) səs çıxmaz. (Nəfəs alın) Yalan sözün (əlavə nəfəs) axırı olmaz.

(Nəfəs alın) Ehtiyat (əlavə nəfəs) igidin yaraşığıdır.

(Nəfəs alın) Yalançının evi yandı, (əlavə nəfəs) heç kəs ona inanmadı.

(Nəfəs alın) Arxı atlanmamış (əlavə nəfəs) “hop” demə.

(Nəfəs alın) Dəvədən böyük (əlavə nəfəs) fil var.

(Nəfəs alın) Bu günün işini (əlavə nəfəs) sabaha qoyma.

(Nəfəs alın) Vətən viran olsa da (əlavə nəfəs) cənnətdir.

(Nəfəs alın) Gözəllik ondur (əlavə nəfəs) doqquzu dondur.

(Nəfəs alın) Daldan atılan daş (əlavə nəfəs) topuğa dəyər.

**Məntiqi oxu vərdişlərinin tərbiyəsi üzrə iş.**

**Tapşırıq 1**

Mətni oxuyun, qəti inam ifadə edən sözləri müəyyənləşdirin. Bu sözləri necə tələffüz etdiyinizə diqqət yetirin.

O gün gələcək!... O gün ki, bütün ölkələrin fəhlələri başlarını qaldırıb, qəti səslə deyəcəklər: “Daha bəsdir!... Artıq biz belə həyatı istəmirik!” O zaman güclülərin həris ağalığı dağılacaq, torpaq ayaqlarının altından qaçacaqdır, onlar söykənməyə bir yer tapa bilməyəcəklər.

**Tapşırıq 2**

Aşağıdakı tapşırığın icra etdirilməsi məntiqi vurğulu sözlərin müəyyənləşdirilməsi qaydalarının praktik olaraq mənimsənilməsinə imkan yaradır.

Cümlələrdəki məntiqi vurğulu sözləri müəyyənləşdirin. Hansı qaydaları əsas götürdüyünüzü izah edin.

1. Fitnə zirək, qıvraq, ağıllı-kamallı qız idi; 2. Bəhram şah şir kimi pusquda durmuşdu;

3. Onun cırıq papağı qar üstündə qaralırdı, o da yiyəsi kimi kiməsə lazım deyildi;

4. Bu papağı kepka və ya şlyapa ilə əvəz etmək mümkündürmü?;

5. Doğurdan da bir azdan sonra Məşədi Səfər söylənə-söylənə içəri girdi;

6. Onun saçları ağdır, mənimki qara;

7. Hələ bu nədir ki, baba, ona nələr öyrədəcəyəm;

8. Qapıya kimi mənə kömək et, sonra mən özüm apararam;

9. Ax!... necə kef çəkməli əyyam idi.

Məntiqi ifadəliliyin digər bir vasitəsinə - məntiqi melodiyaya yiyələnmək üzrə də iş aparılmalıdır. Çalışmalar səsin mütəhərrikliyini, oynaqlığını, dəyişkənliyini aydınca hiss etməyə və bunu praktik olaraq yerinə yetirməyə imkan yaratmalıdır. Durğu işarələri səsin melodiyasının səciyyəsinə əhəmiyyətli təsir göstərir. Lakin cümlələrin (mətnin) mahiyyətinə dərindən nüfuz etmədən melodiyanın səsin hansı məqamlarda yüksəldiyini və ya alçaldığını müəyyənləşdirmək mümkün deyildir.

Əvvəlcə sadə çalışmaların icra etdirilməsi məqsədəuyğundur.

Sadə cümlənin oxusunda səsin hərəkət sxemi göstərilməli və mahiyyəti şərh edilməlidir.

**Çalışma 6.**

Aşağıdakı cümlələrdə səsin hərəkət sxemini müəyyənləşdirin.

1. Günəş boylandı və kölgələr uzandı; 2. Məsləhətli don gen olar; 3.“Halva, halva” deməklə ağız şirin olmaz; 4. Evin yaraşığı uşaqdır, süfrənin yaraşığı qonaq; 5. Dostdan ayrılan yeddi il ağlar, vətəndən ayrılan ölənəcən.

**Çalışma 7.**

Mətni oxuyun, səsinizin yüksəlib alçaldığı yerləri müəyyənləşdirin. Təkrar oxuda necə etdiyinizə diqqət yetirin.

Bahar başını qaldıraraq göyə baxdı, qaranlığın tam hakim olduğunu, qış gecəsinin qorxusunun hər tərəfi bü-

rüdüyünü gördükcə, bədəni buz kimi soyuq və qorxulu bir dəhşət hissi ilə doldu. Ürəyi kiçik bir quş kimi sürətlə döyünür, başı dönürdü. Hərəkət etmək istəyirdi, amma yerindən tərpənə bilmirdi, elə bil qəssabxanadan uzaqlaşması mümkünsüz idi. Damarlarında gərginlik yayılırdı. O hiss edirdi ki, qaranlıq onu sararaq gözlərini bağlamışdır. Ayaqları isə zəncirlənmiş, topuqlarına ağır yük kimi daşlar bağlanmışdı. Hər addımda daşlar ayaqlarını sıxır, ayaqları buz kimi soyuq, iynə ilə dolu səthə yapışırdı. Ara-sıra isti bir istilik duyurdu, bəlkə də bu qan axını idi. O, oturub ayaqlarının altını nəzərdən keçirirdi, amma qaranlıqdan heç nə aydın görünmürdü.

Son bir ümidlə özünü ev sahibinin qapısına apardı. Qorxu içində qapını döydü. Sakitlik idi, heç bir səs gəlmirdi. Donmuş və birləşmiş barmaqları ilə qapının dəmirini bir daha tərpətdi. Həyətdən qarı ayaqlayan ayaq səsləri gələndə, uşağın sönmək üzrə olan ümidi yenidən alovlandı. Qapı açılan kimi tez içəri daxil olmaq istədi. Ev sahibi isə əlindəki Bahara aid köhnə yorğanı qapının arxasına atdı.

- İtil, hansı cəhənnəmə gedirsən, get!
- Bahar inana bilmədi:
- Gecənin bu vaxtında, boranda hara gedim. Ay xanım, qurban olum, mənim yerim yoxdur. Xanım, sən bilirsən ki...
- Bahar əlini qapıya atıb nə isə demək istəyirdi:
- Xanım, xan...

Xanım qapını elə bərk çırpıb dəmirlə bərkitdi ki, deyərdin oğrudan, quldurdan qorunur. Baharın sözü ağzında qaldı. Boş və boran uğuldayan qaranlıq küçədə qar içinə bata-bata uşaq bazara sarı yönəldi. O, tufana düşən yarpaq kimi əsib yerdən-yerə dəyirdi.

## Səs. Diksiya.

Gücünə, ucalığına, tembrinə görə səsdəki dəyişmələrlə tələbələr əvvəlki mərhələlərdə istər çalışmaların icrası prosesinə, istərsə də natiqliyin sahələrinə aid video çarxları izləyərkən tanış olmuşlar. Lakin bu istiqamətdə xüsusi çalışmaların icra etdirilməsi vacibdir.

### Çalışma 8.

Səsin gücünü və öz səsinin müşahidə olunması:

"Yaxına gəl" sözlərini növbə ilə alçaqdan, ucadan, daha ucadan tələffüz edin. Bunu bir neçə dəfə təkrar edin.

### Çalışma 9.

Məsafədən "Kitabxanada oldunmu?", "Kitabı tapdınmı ?", "Ver mən də oxuyum" cümlələri ilə yoldaşınıza müraciət edin. (Təsəvvür edin ki, otaqda mütaliə edənlərə səsinizlə mane olmamağa çalışırsınız).

### Çalışma 10.

Səsinizin məsafədən cingiltili, təbii və məlahətli eşidilməsinə çalışın.

"M" səsini uzun (səsi uzatmaqla) tələffüz edin.

Həmin səsi sait səslərlə birləşdirərək uzatmaqla, mahnı oxuyurmuş kimi (lakin eyni ahəngdə) tələffüz edin: ma, mı, mo, mu, me, mə, mi, mö, mü.

Sondan başlayaraq (mü, mö, mi, və s.) tələffüz edin.

Çalışmanı bir neçə dəfə təkrar edin. Tənəffüsünüzün düzgünlüyünə diqqət yetirin.

### Çalışma 11.

Mətnin məzmunu ilə tanış olun. Tənəffüs qaydalarına əməl etməklə səsinizin gücünü , tempini və ucalıq səviy-

yəsini dəyişməklə onu hündürdən oxuyun. Əsərin məzmunu ilə əlaqədar olaraq səsin çalarını dəyişin.

### Pöhrələrin uca olsun

Uzaq səfərdən gələn qocanın boş bir səhrada azuqəsi qurtarır. Qoca ümidsizləşir. Bir qədər də yol gedir. Səhrada uca bir ağac görür, özünü ağaca çatdırır.

Qoca bu ağacın meyvəsindən yeyib doyur. Xəzəlləri aralayıb su tapır. Doyunca içir. Sonra da ağacın kölgəsində yatıb dincəlir. O, ağacdan ayrılarkən deyir:

- Sənə nə alqış edim? Deyəcəyəm, uca ol, ucasan. Deyəcəyəm, meyvən şirin olsun, şirindir. Deyəcəyəm, kölgəli ol, kölgəlisən. Deyəcəyəm, dibindən dirilik çeşməsi qaynasın, bu da var. Bəs sənə nə alqış deyim? Deyirəm ki, pöhrələrin də özün kimi uca olsun.

***(“Yaşayan əfsanələr” kitabından)***

***Dəqiq və aydın diksiya düzgün artikulyasiya zəminində yaranır. Buna görə də səslərin, söz və cümlələrin saf aydın tələffüzünə nail olmaq üçün ilk növbədə artikulyasiya aparatının fəallaşdırılması üzrə çalışmalardan istifadə etmək lazımdır. Bu, həm də danışıq üzvlərindəki qüsurların ortadan qaldırılmasına da kömək edir.***

### Çalışma 12.

Dodaqlarınızı möhkəm bağlayın. “Bir” deyəndə, üst dodağınızı əzələləri gərginləşdirmədən yuxarı doğru qaldırın. “İki” deyəndə isə dodaqlarınızı əvvəlki vəziyyətinə gətirin. (Bu zaman yalnız üst dişlər görünməlidir).

Dodaqlarınızı yenidən bağlayın. “Bir” deyəndə, alt dodağınızı əzələləri sərt etmədən aşağıya doğru dartın. “İki” deyəndə isə dodaqlarınızı əvvəlki halına qaytarın. (Bu zaman isə yalnız alt dişlər görünsün).

**Çalışma 13.**

Dodaqlarınızı kip qapayın. Dişlərinizi yüngülcə sıxın. "Bir" sayında dodaqlarınızı irəli uzadın. ( Bu məqamda dodaqlar dairəvi vəziyyət alır) "iki" sayında dodaqlarınızı əvvəlki vəziyyətinə qaytarın.

Dodaqlarınızı kip qapayın. Dişlərinizi yüngülcə sıxın. "Bir" sayında dodaqlarınızı irəli uzadın , "iki" sayında sola, "üç" sayında sağa, "dörd" sayında dairəvi hərəkət etdirin. (Bütün hallarda dodaqlar dairəvi vəziyyətdə olur).

**Çalışma 14.**

"Bir" sayında dilinizi çıxararaq yuxarı-burnunuzun uçuna doğru qaldırın, "iki" sayında alt çənənizə tərəf buraxın .

Ağzınızı geniş açın, "bir" sayında dilinizi ağız boşluğunda dairəvi hərəkət etdirin; əvvəlcə soldan başlayın və damağın üzərindən sürüşdürməklə sağa hərəkət etdirin. "İki" sayında isə əksinə hərəkət etdirin.

**Çalışma 15.**

"Bir" sayında alt çənənizi bir az gərginliklə aşağı salın, "iki" sayında çənənizi əvvəlki vəziyyətinə qaytarın, dodaqlarınızı kip qapayın.

"Bir" sayında alt çənənizi irəli uzadın, "iki" sayında əvvəlki vəziyyətinə qaytarın.

"Bir" sayında alt çənənizi irəli uzadın, "iki" sayında aşağı buraxın, "üç" sayında sağa hərəkət etdirin, "dörd" sayında sola hərəkət etdirin. Danışıq səslərinin hər birinin tələffüzü ilə əlaqədar çalışmaların icra etdirilməsinə məşğələlərdə, əlbəttə, imkan yoxdur. Kursantların bu istiqamətdə müstəqil işləmələri üçün tapşırıqlar vermək və aşağıdakı çalışmalarla kifayətlənmək olar.

## Çalışma 16.

Dərindən nəfəs alın, havanı bir anlağa ciyərlərinizdə saxlayın, göstərilən sait səslərin hər birinin tələffüzündən sonra qısa fasilə edin. Saitlərin hər birini növbə ilə səssiz, pıçıltı ilə, ucadan və tempi tədricən surətləndirməklə tələffüz edin: a–ı–o–u–ə–e.

## Çalışma 17.

Sait səsləri samit səslərlə birləşdirməklə (əvvəlcə bir sait, astadan, ucadan, daha ucadan və tempi tədricən sürətləndirməklə tələffüz edin: ba–bı–bo–bu–bə–be–bi–bö–bü; bam–bım–bom–bum–böm–büm.

## Çalışma 18.

Göstərilən sözləri ucadan tələffüz edin. Tələffüzünüzün düzgünlüyünü orfoepiya lüğəti ilə yoxlayın.

1.Dəqiqəbaşı. 2.Diaqnoz. 3.Dördbucaq. 4.Əcdad. 5.Seyrəksaclı. 6.Təravətli. 7.Təmkinli. 8.Yarımdairə. 9. Maldarlıq. 10. Mətinləşmək.

## Çalışma 19.

Yanıltmacları diqqətlə və səssiz oxuyun. Məzmununu başa düşdüyünüzü yəqin etdikdən sonra dəqiq artikulyasiya ilə əvvəlcə səssiz, sonra pıçıltı ilə aramla, ucadan sürətlə nəhayət, daha ucadan və daha sürətlə tələffüz edin.

Nümunələrdən hər birini aydın, dəqiq tələffüz etməyi öyrənmədən digərinə keçməyin.

1. Göy cöngə, gömgöy cöngə, dümgöy cöngə;

2.Ocağı qığılcımlandırma, qığılcımlandırsan da qığılcımlandıracağam, qığılcımlandırmasan da qığılcımlandıracağam;

3. Ay qılquyruq qırqovul, gəl bu kola gir, qılquyruq qırqovul;

4. Bazarda nə ucuz? Mis ucuz, duz ucuz, küncüt ucuz;

5. Qatığı sarımsaqlasan da yemək olar, sarımsaqlamasan da;

6. Bu mis nə pis mis imiş, bu mis Kaşan misi imiş.

### Çalışma 20.

Şeri oxuyarkən ş, r, c, p, q səslərinin necə tələffüz etdiyinizi yoxlayın.

**Yağış**

Yağış yağır, rəqs eləyir gur damcılar,
Sıra-sıra, inci-inci, nur damcılar.
Göydə iki qara bulud toqquşaraq,
İldırımlar şaqqıldayır: şaraq-şaraq,
Quşlar uçur yuvasına pırıl-pırıl.
Şırıldayır navalçalar şırıl-şırıl...
Çaxnaşanda göy üzündə ildırımlar.
Bir-birinə dəydi sanki qaldırımlar.
Döngələrdə durna bax, qaçana bax!
Qaldırımda o balaca oğlana bax...
Zümzümənlə şirin-şirin dillən, yağış;
Küçələrdə sellən, yağış!
Yağ, ey yağış,
Uzaq, yaxın çöllərə yağ,
Ölkəmizə, ellərə yağ!

***(M.Müşviq)***

## Çalışma 21.

Mətni oxuyarkən səsləri, xüsusən b, ş, q, r, s, samitlərini saf, aydın tələffüz edin. Düzgün tənəffüs qaydalarını gözləyin.

### Qarabağın muzeyi

Bir muzey var o dağların başında,
Hansı əlsə - binasının ucaldıb.
Gül bitirir fəsillərin qışında,
Yaz yetirir qışı birdən qocalıb...
Palıd kürək o qapıdan əsir yel,
Budaqları, qanadları ayıldır.
Əşyalar da, rəsmlər də elə bil
Adamlar da, adətlər də qayıdır.
Hafizədə daldalanıb dincələn
O işıqda alışmışam sönmüşəm;
Nəsillərdən-nəsillərə yol gələn
Həqiqətlə, əfsanəyə dönmüşəm
Sualları saya çəkən, azdıran
Sirlər açır hər güneyi, quzeyi!
Əsrləri danışdıran, susduran –
Qarabağın qarlı-günlü muzeyi...

***(Sərdar Əsəd)***

# Dərsdə istifadə olunan sxemlər (Sergey Şipunov)



## Həyəcanın / qorxunun azaldılması





Jestlər
Simmetriya
Bəzən solla
Bəzən sağla
Bəzən hər ikisi ilə
Geniş formada
Bütün qolu işlədirik
Dirsəkləri bədəndən qoparırıq
FINISH
Bitirilmiş
Fiks etmə - sonda pauza
Açıq
Yumruq sıxmırıq
Parazit jestlər
Burnu silmək
Saçı düzəltmək
Mənasız jestlərdənsə
Danışan (təsvir edən)
Əhəmiyyətli sözlərə vurğu
Jest və sözlərin uyğunluğu
Baza duruşu
2-3 variant tapmalı

## Qarşılıqlı əlaqə prinsipləri (feedback)




## Energetika

**Şərti energetika şkalası 0-dan 20-ə kimidir**

- Əsas işləmə aralığı – 12-dən 16-ya kimi
- 17-18-19 – çağırış, şüar, həvəsləndirici çıxış



## Natiqin əsas duruşu




Əsas odur ki, sizə rahat olsun! Əgər klassik duruş sizə rahat deyilsə, başqasını axtarın (hansı ki, həm sizə, həm dinləyicilərə rahat olacaq)!

## Əllərin ilkin duruşu

Əllərin elə ilkin duruşunu seçin ki, məhz sizə uyğun olsun!



"Sadə duruş"



"Romb"



"Ovuc ovuc içində"



"Yumruq sərt ovucda"



"Hörmə"



"Barmaqlar ovucda"



"Yumruq boş ovucda"

## Nitq texnikasının parametrləri




## Söz improvizasiyası üçün üslublar




Göz kontaktı
Bütün auditoriyanı əhatə edirik
Ölü zonasız
Kənarlar
Bərabər
Vaxtla
Orta hesabla 2-3 saniyə
Kontakt yaranana kimi
Gülümsəyir
Başını sallıyır
Diqqəti cəlb olur
Xaotik
Sıra ilə
Soldan-sağa atəş açmadan
Sərbəst formada baxırıq
Ürəkdən ürəyə
Bütün bədənlə dönürük
Ancaq baş və ya gözlə yox
Kontaktın gücləndirilməsi
Mənalı jest
Yaxınlaşma
Ritorik suallar
Böyük auditoriyalarda
Sektorlara bölürük
Zəhmli rəhbər
Daha çox diqqət ona
Amma başqalarına da baxırıq
Suala cavab
30% diqqət - sual verənə
70% - bütün zala

## Test (cavablar)
## Nitqin məqsədə görə növləri

| | |
|---|---|
| 1.B | 7.C |
| 2.A | 8.B |
| 3.C | 9.C |
| 4.D | 10.C |
| 5.B | 11.B |
| 6.C | 12.C |

## İstifadə edilmiş ədəbiyyat


*Azərbaycan dilində*

1. Abdinova R., Hüseynova N. Azərbaycan dili və nitq mədəniyyəti, "Elm və təhsil", Bakı,2020.
2. Abdullayev A.S. Nitq mədəniyyəti və natiqlik sənəti, Bakı,1981.
3. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları, Bakı, 2013
4. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti, Bakı, 2011.
5. Əhmədov Ş. Mühazirəçilik məharəti, natiqlik sənəti, Bakı,1985.
6. Əliyeva F. Ritorika dərs vəsaiti, Bakı, 2023
7. Mustafayeva S. Nitqin inkişafı, Bakı, 2011
8. Qasımov Ə.H. Məhkəmə nitqi və mübahisələr mədəniyyəti, Bakı, 2022
9. Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika, Bakı, 2014.

*Rus dilində*

10. Баева О.А. Ораторское искусство и деловое общение., Минск,2002.
11. Браим И.Н. Культура делового общения., Минск, 1998.
12. Совкова З.И. Техника речи, Мос., 1988.
13. Успенский Л.В. Культура речи, Мос., 1976.
14. Шипунов С. Харизматичный оратор, Мос., 2007

## Mündəricat:

Fənnin öyrədilməsinə aid metodik tövsiyə............................4
Mövzu-təqvim planı....................................................................7
Fənnin kompetensiyaları ...........................................................9
Heydər Əliyev Azərbaycan dili haqqında.............................12
Dil və onun cəmiyyətdə rolu.................................................14

**I mövzu. Ritorika fənninin predmeti, məqsəd və vəzifələri, tarixi, başqa elmlərlə əlaqəsi. Natiqlik sənəti,** sahələri və əsas xüsusiyyətləri................................18
Natiqlik bacarıqlarının inkişaf etdirilməsi yolları ..................20
Söz haqqında fikirlər, aforizmlər, atalar sözləri ...................24
Demosfenin natiqliyi haqqında hekayə...............................26
Dostoyevskinin "Cinayət və cəza" əsərində məhkəmə nitqinin məzmunu və analizi.................................................28
Çıxışa hazırlıq zamanı mühüm olanlar ................................29
İnsanın yerləşdiyi zonanın nitqə təsiri. Şüuraltı qorxunun aradan qaldırılması. .............................................31
Təcrübi məşğələlər ...............................................................31

**II mövzu. Üslub və üslubiyyat. Ədəbi dilin normaları. Nitqin növləri, formaları, etiketləri** ................38
Danışıq mədəniyyətinin üslubi baxımdan əhəmiyyəti.........41
Yazı mədəniyyəti...................................................................42
Dinləmə mədəniyyəti ............................................................43
Təcrübi məşğələlər ...............................................................46

**III mövzu. Ünsiyyət vasitələri və onların nitqdə rolu, əhəmiyyəti. Nitqin məqsədinə görə prinsipləri və növləri** ..............................................................................50
Ünsiyyət vasitələrinin əhəmiyyəti.........................................53
Bədən dili oxuma ilə bağlı bəzi praktik üsullar: ...................54
Təcrübi məşğələlər ...............................................................56

**IV mövzu. Nitq fəaliyyəti. Nitqin obrazlılığı və emosional ifadəliliyi. Çıxışın kompozisiyası.** .................64
Yaranış mərhələsində ritorik fəaliyyətdə nə etməli?...........66
Təcrübi məşğələlər ..............................................................67
Heydər Əliyev müstəqil Azərbaycanın banisidir..................70
Heydər Əliyevin azərbaycançılıq ideologiyası....................73
Heydər Əliyev haqqında deyimlər ........................................77
Məhkəmə nitqlərinə nümunələr ...........................................79

**V mövzu. Kütlə qarşısında nitq. Natiqin xarici görünüşü. Nitq texnikası. Diskussiya mədəniyyəti.**......81
Kütlə qarşısında təsirli çıxış etməyin yolları ........................82
Nitqin intonasiyası ................................................................87
Səsin parametrləri.................................................................88
Cümlənin melodiyasının funksiyaları. Psixoloji və məntiqi........................................................................................90
Təcrübi məşğələlər ..............................................................92

Nitq üzrə aparılan praktik çalışmalar.................................104
Dərsdə istifadə olunan sxemlər (Sergey Şipunov)...........118
Test (cavablar)....................................................................125
İstifadə edilmiş ədəbiyyat ..................................................126

Texniki operator: Dil hazırlığı kafedrasının operatoru, polis serjantı **Alıyeva Turanə Mehman qızı**

Korrektor: Elmi-tədqiqat və redaksiya nəşriyyat şöbəsinin baş inspektor-korrektoru, polis leytenantı **Qurbanlı Fərqanə Rafiq qızı**

---

Yığılma tarixi: 14.07.2025-ci il
Format 60x84 1/16; Tiraj: 100 ədəd
“Bakı” MMC mətbəəsində
çap olunmuşdur